# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 09 (3475) Cümə axşamı / 16 mart 2023-cü il Qiymәti 40 qәpik


MÜSAHİB

## Rusiya Qarabağa əlavə qoşun yeritməyə çalışır



**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

***Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu ilə hafta.az üçün budəfəki söhbətimiz, əsasən, Qarabağın dağlıq hissəsində və Azərbaycan-Ermənistan sərhədində son vaxtlar baş verənlər, martın 1-də Qarabağdakı erməni nümayəndələri ilə Xocalıda Rusiya "sülhməramlı" komandanının bilavasitə təşkilatçılığı və iştirakıyla keçirilən görüş və bundan cəmi 4 gün sonra Turşsu-Xəlfəli-Xankəndi yolunda baş vermiş qanlı təxribatdan sonra Qarabağ ətrafındakı hərbi-siyasi durum və bütün bunların fonunda Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının gələcəyi və s. barədə danışdıq.***

*İstisna etmirəm ki, Rusiyanın növbəti təxribatlarından biri Qarabağdakı dinc erməni əhalini hədəf alacaq*

Səh. 5

# İslamafob Fransa




***Son illər dünyada xüsusilə İslam ölkələrinə, mədəniyyətinə, dininə qarşı ikili və qərəzli yanaşma meylləri sürətlə artır. Təəssüfləndirici məqam odur ki, bu təhlükəli tendensiyanın geniş vüsət almasında bir sıra dövlətlər özləri maraqlıdırlar. "Demokratiya, söz azadlığı" adı altında İslam ölkələrinə qarşı aparılan qarayaxma siyasəti bu ölkələr tərəfindən prioritet istiqamət kimi müəyyənləşdirilib. Azərbaycan da İslam aləminin aparıcı üzvülərindən biri olmaq səbəbi ilə bu yanaşmalardan əziyyət çəkir. 30 illik işğal dövründə tarixi, dini mədəniyyət irsimizin erməni işğalçıları tərəfindən məhv edilməsi, dini dəyərlərimizə qarşı hörmətsizlik sanki heç olmayıbmış kimi bir təəssürat yaradılmışdı. İşğaldan azad ərazilərimizdəki dağıntıların miqyasını bəzi ölkələr indi də görməzdən gəlməyə çalışırlar. Təəssüf ki, bu ölkələrin başında İslama qarşı total hücumun əsas ideya müəlliflərinin cəmləndiyi Makron Fransası dayanır. Fransada İslamafobiya meyllərinin xeyli artması və dövlət siyasətinin tərkib hissəsinə çevrilməsi aparılan araşdırmalar ilə də təsbit edilib.***

**Fransua Burqat, Elmi Araşdırmalar üzrə Fransa Milli Mərkəzində fəxri baş elmi işçi:**

*- Fransa artıq xristian cəmiyyət deyil, ora xristianlıqdan azad edilən cəmiyyətdir. Fransada siz öz inancınıza məxsus hansısa atributla gəzsəniz, bu, qeyri-qanuni hesab olunacaq. Fransada olan islamofobiyanın digər bir səbəbi "Fransa üslublu dünyəvilik"dir. Fransa cəmiyyəti dövlət islamofobiyasına doğru gedir. On il əvvəl müsəlmanlarla bağlı kiçik bir mübahisə olardısa, o kriminallaşdırılardı. Artıq Fransa hökuməti hərəkətləri yox, düşüncələri kriminallaşdırır. Müsəlman vətəndaşların fikirləri kriminallaşdırılır.*

**Rauf Məmmədov, AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı:**

*- Bu gün dünyada İslama qarşı təzyiqlər digər dinlərlə müqayisədə daha çoxdur. Fransa müsəlman əhalisi ən çox olan Avropa ölkəsidir. Belə ki, bu ölkənin əhalisinin 9 faizi müsəlmanlardır. 2020-ci ildən Fransada 89 məscid, 650-ə yaxın ibadət yeri bağlanıb, iki imam deportasiya edilib. Fransa hakimiyyəti 1989-cu ildən başlayaraq, müsəlman əhalisi çox olan şəhərlərində özlərinin icmalarını yaratmağa başladılar. Bu, məhdudlaşdırma siyasətinin bir parçası idi. Fransa Prezidenti Emmanuel Makronun hakimiyyəti dövründə bu ölkədə islamofobiya daha da artıb. Müsəlmanlar polislər tərəfindən təqib edilir. Fransada bəzi elə qanunlar qəbul edilib ki, bütün insanların inancını tanıyır, amma müsəlmanlarınkını yox.*

Lil Universitetinin professoru Olivier Estevesin rəhbərliyi ilə aparılan tədqiqatlar göstərib ki, Avropa qitəsində müsəlmanların ən çox yaşadığı ölkə olan Fransada İslam dininə mənsub olan yüksək təhsilli və ixtisaslı gənclər bu ölkəni tərk edərək Böyük Britaniya, ABŞ, Kanada və Dubaya köçürlər. Artıq kütləvi hal alan köçün səbəbi isə siyasətçilərin demokratiya və insan azadlıqlarından bəhs etdiyi Fransada islamofobiyanın güclənməsidir.

Tədqiqatda son bir neçə ay ərzində Fransanı tək edən 1 mindən çox müsəlman arasında aparılmış rəy sorğusunun nəticələri əks olunub. Professor Esteves bildirib ki, respondentlərin 70 faizi emiqrasiyanın səbəbinin islamofobiya, irqi və dini zəmində ayrı-seçkilik olduğunu bildirib. O əlavə edib ki, yüksəkixtisaslı müsəlman mütəxəssislərin Fransanı tərk etməsi bu ölkənin elm və iqtisadi sahələri üçün zərərli tendensiyadır. "İstehza doğuran hal ondan ibarətdir ki, Fransa hökuməti bu şəxslərin təhsilinə çoxlu vəsait ayırıb, lakin institusional islamofobiya ucbatından onların ölkəyə faydasını görə bilməyəcək", - deyə professor vurğulayıb.

Bu yaxınlarda Fransadan Böyük Britaniyaya köçən 38 yaşlı maliyyə layihələri meneceri, müsəlman qadın Nataşa Yevtoviç bildirib ki, onun ölkəni tərk etməsinin əsas səbəbi başqa yerdə dini etiqadını sərbəst şəkildə ifadə edə bilməsi, eyni zamanda, daha yaxşı karyera imkanlarına malik olmasıdır. Onun sözlərinə görə, indi Londondakı iş yerində Parisdə olduğundan iki dəfə artıq əməkhaqqı alır. Yevtoviç əlavə edib ki, aparıcı fransız banklarından birində menecer olduğu vaxt dəfələrlə irqçi replikalar eşidib və həmkarları tərəfindən dini zəmində ayrı-seçkiliyə məruz qalıb. Bosniyadan olan qadın Anadolu agentliyinə müsahibəsində deyib: "Parisdəki iş yerimdə irqçi məzmunda atmacalar olurdu və mən bunu dayandırmağı xahiş edəndə, həmkarlarım nahar yeməyində mənimlə bir yerdə oturmaq istəmirdi. Altı aya yaxın onlar mənimlə danışmadı və bir müsəlman qadın kimi özümə hörmət tələb etdiyimə görə boykot edildim". Fransız siyasi təhlilçi və insan hüquqları müdafiəçisi, Ədalət və

**Kamil Meziti, "İslamofobiya lüğəti" kitabının müəllifi:**

*- Fransa son 10 il ərzində klassik irqçilikdən qanuni irqçiliyə gəlib çıxıb. Bu ölkədə Fransa Respublikası dəyərlərinə xas olmayan proseslər baş verməyə başlayıb. Fransada müsəlmanlar üçün mühit yaxşı deyil. Onlar deyir ki, müsəlmanlar Fransa cəmiyyətini zəbt edib. Müsəlmanları, eyni zamanda, potensial terrorçu kimi görürlər, onlarla eyniləşdirirlər. Terror aktları baş verdikdə müsəlmanlara işarə edilməməlidir. Nəyə görə birinci müsəlmanlar haqqında düşünülür? Biz birlikdə yaşayırıq. Hamımız birlikdə islamofobiyaya qarşı mübarizə aparmalıyıq.*

**Sahar Aziz, professor**

*- Fransada məktəblərdə hicaba qarşı qadağa patriarxat bir qərardır. Bu qərar yalnız həmin şəxsin seçimindən asılı olmalıdır. Bu qadınlara qarşı çox aqressiv yanaşmadır. ABŞ-da belə bir fikirlər var ki, müsəlman azlıqlar şəriət cəmiyyəti qurmaq istəyirlər. Amma müsəlman əhalisi çoxluq təşkil edən ölkələrdə belə şəriət cəmiyyəti yoxdur. Fransada müsəlman cəmiyyəti müəyyən siyasi müsəlman qrupları ilə fikirlərinin üst-üstə düşməməsindən əziyyət çəkir. Bunun özü də olduqca qüsurlu faktdır.*

Azadlıqlar Komitəsinin (CJL) sədri Yasir Luti bildirib ki, Fransada din və etiqad azadlığına əməl edilmir və bu səbəbdən müsəlman peşəkar kadrlar ölkəni tərk edirlər. Onun sözlərinə görə, fransız cəmiyyətində islamofobiya mütəşəkkil hal alıb və vəziyyətin bu cür pisləşməsi, il növbədə, Fransanın özünə ziyan gətirir.

Səh. 7

MÜSAHİB



**Razi Nurullayev,**
Milli Məclisin deputatı

- Azərbaycanda insanların dininə, irqinə, dilinə olan hörmət heç bir ölkədə yoxdur
- Ermənistanın və erməni lobbisinin "konyak diplomatiyası"ndan gen-bol faydalanan Avropa Parlamentinin Azərbaycana "öyüd-nəsihət" verməyə mənəvi haqqı yoxdur
- Avropa Parlamentində ənənəvi Qərb dəyərləri, habelə plüralizm, ifadə azadlığı kimi fundamental məsələlər Avropadakı erməni icmasının radikal fəaliyyəti nəticəsində məhv olmaq təhlükəsi ilə üzləşib

Səh. 6

GÜNÜN FOTOSU...



**Türkiyənin zəlzələ bölgəsi indi də, selin qurbanı oldu**

GÜNÜN SİTATI



*"Bu gün və hər zaman hamılıqla insanlıq nümayiş etdirərək dağıdıcı qüvvələrə qarşı mübarizə aparmalı, ümumi insanlığımızı təsdiqləyərək bölücü qüvvələrə qarşı durmalıyıq"*

**Antonio Quterreş,**
BMT-nin Baş katibi

KARİKATURA




**KTMT Ermənistandan küsüb**

## Qadınların pensiya yaşı azaldılsın

**Vüqar Bayramov,**
millət vəkili

Bu təklifin maliyyə əsaslandırılması hazırlandıqdan sonra konkret müzakirələrin davam etdirilməsi mümkündür.

Səh. 7

STATİSTİKA



**Bu ilin yanvar ayında Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin eyni dövrünə nisbətən 11,8 % artaraq 856,2 manat olub.**

Bu il fevralın 1-nə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 33 min nəfər və yaxud 2 % artaraq 1 712,1 min nəfər olub. Onlardan 901,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 811,0 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.



Səh. 3

## Korsikada fransız zülmü

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezidenti İlham Əliyev Xalq yazıçısı Anarla bağlı Sərəncam imzalayıb. Sərəncamla Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Anar Rəsul oğlu Rzayev 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib. Qeyd edək ki, Anarın 85 yaşı tamam olub.**

# Kəmaləddin Heydərov ABŞ-ın Avropa Komandanlığının nümayəndəsi ilə görüşüb



**15 mart 2023-cü il tarixində Fövqəladə Hallar Nazirliyinin inzibati binasında Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığının tərəfdaşlıq, təhlükəsizlik və siyasət imkanları üzrə direktor müavini briqada generalı Edvard Voqan ilə görüşüb. Bu barədə FHN məlumat yayıb.**

Qonağı səmimiyyətlə salamlayan nazir Kəmaləddin Heydərov hər iki ölkənin fövqəladə hallarla mübarizə üzrə uyğun qurumları arasında əlaqələrin hazırki səviyyəsindən məmnunluq ifadə edib. Qurumlararası əlaqələrin, o cümlədən mülki müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğunu vurğulayan nazir qarşılıqlı səfərlərin, təlimlərin əhəmiyyətindən danışıb. Bu çərçivədə, ABŞ-ın Təhlükənin Azaldılması üzrə Müdafiə Agentliyi tərəfindən FHN-in Mülki müdafiə qoşunlarına avadanlıqların verilməsinə və təlimin keçirilməsinə görə təşəkkür edən nazir iki qurum arasında prioritet sahələr üzrə gələcək ikitərəfli əməkdaşlıq perspektivlərinin müəyyən olunması məqsədilə müzakirələrin aparılmasının vacibliyini vurğulayıb.

Nüvə təhlükəsizliyi məsələlərinə toxunan nazir K.Heydərov Ermənistanda köhnə texnologiya ilə fəaliyyət göstərən və ciddi texniki problemlərinin olduğu Metsamor Atom Elektrik Stansiyasının bütün region üçün yaratdığı böyük nüvə təhlükəsi barədə danışıb.

Həmçinin, nazir fevralın 6-da Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə Azərbaycan Prezidentinin tapşırığına əsasən qardaş ölkəyə göndərilmiş FHN-in çevik xilasetmə qüvvələrinin fəaliyyəti barədə ətraflı məlumat verib, əldə edilmiş təcrübələri bölüşüb.

Səmimi görüşə görə təşəkkür edən briqada generalı Edvard Voqan iki ölkənin uyğun qurumları arasında fövqəladə hallarla mübarizə üzrə əlaqələrin inkişaf etdirilməsinin qarşılıqlı faydalı olduğunu vurğulayıb. Bu çərçivədə, qonaq ABŞ-ın Təhlükənin Azaldılması üzrə Müdafiə Agentliyi ilə Azərbaycan Fövqəladə Hallar Nazirliyi arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsi perspektivləri barədə fikirlərini bölüşüb.

Qonaq Türkiyədə baş vermiş dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılması ilə əlaqədar Azərbaycan Fövqəladə Hallar Nazirliyinin əldə etdiyi təcrübələri bölüşdüyünə görə nazir Kəmaləddin Heydərova təşəkkür edib.

Bundan əlavə, E.Voqan dənizdə neft dağılmaları ilə mübarizə üzrə uyğun qurumlar arasında əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını qeyd edib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər geniş müzakirə olunub.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Azərbaycan bölgədə Almaniyanın ən vacib tərəfdaşıdır

**Prezident İlham Əliyev:**

*- Səfər zamanı apardığımız danışıqlar bir daha onu göstərir ki, Almaniya-Azərbaycan əlaqələri yüksək səviyyədədir. Siyasi dialoq müntəzəm olaraq aparılır və əminəm ki, mənim səfərim bizim ikitərəfli münasibətlərimizə çox böyük töhfə verəcəkdir.*

*Siz qeyd etdiyiniz kimi, bir çox məsələlər bu gün müzakirə olundu, o cümlədən Avropa İttifaqı-Azərbaycan əlaqələri. Bu istiqamətdə çox önəmli addımlar atılır. Xüsusilə keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji təhlükəsizliyi üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu bizim niyyətimizi göstərir. Memorandumun icrası və sürətlə icrası, vaxtında icrası bir daha göstərir ki, Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır. Biz Avropa məkanına qaz ixracatımızı artırırıq. 2021-ci ildə əgər Avropaya 8 milyard kubmetr qaz ixrac etmişiksə, bu il bu rəqəm təqribən 12 milyard kubmetrə çatacaq. Bu, bizim ümumi ixracatımızın yarısı deməkdir, gələcək illərdə öz ixrac coğrafiyamızı Avropada genişləndirmək istərdik.*

*Dünən mənim 30-a yaxın almaniyalı iş adamı ilə görüşüm olmuşdur. İki saata yaxın davam edən bu görüşdə Azərbaycana, Azərbaycan iqtisadiyyatına, imkanlara Almaniya biznesi tərəfindən böyük diqqətin şahidi oldum. O cümlədən bərpaolunan enerji növlərinin birgə işlənməsi və istismarı istiqamətində çox gözəl imkanlar var, bu barədə də bu gün biz fikir mübadiləsi apardıq. Azərbaycanın çox geniş bərpaolunan enerji potensialı var. Təkcə Xəzər dənizinin külək enerji potensialı 157 qiqavata bərabərdir və artıq bir neçə kontrakt imzalanıb. Əminəm ki, gələcəkdə Azərbaycan Avropaya təkcə təbii qaz yox, yaşıl enerjini də ixrac edən ölkəyə çevriləcəkdir.*

*Bütövlükdə biznes imkanları çox genişdir. Mən almaniyalı iş adamlarını Azərbaycana dəvət etdim ki, onlar gəlsinlər və bizim müvafiq qurumlarla təmaslar əsnasında gələcək biznes imkanlarını yaxından incələsinlər.*



> *Memorandumun icrası və sürətlə icrası, vaxtında icrası bir daha göstərir ki, Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır*

> *Burada sülh yolu ilə həll deyəndə təbii onu nəyi nəzərdə tuturuq ki, həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyü təmin olunsun*

**Olaf Şolts, Almaniya Kansleri:**

*- Almaniya üçün vacibdir ki, Azərbaycan və Ermənistan arasında uzunmüddətli münaqişə artıq özünün sülh yolu ilə həllini tapsın. Açığını deyək ki, Almaniya Ermənistan-Azərbaycan sərhədində mövcud olan qeyri-sabit duruma görə bir az narahatdır. Bizim arzumuz budur ki, bu münaqişə qısa bir zamanda, yerindəcə uzunmüddətli və qəbul olunan həllini tapsın. Burada sülh yolu ilə həll deyəndə təbii onu nəyi nəzərdə tuturuq ki, həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyü təmin olunsun. Eyni zamanda, hər iki ölkənin əhalisinin insan hüquqları və azadlıqları qorunmalıdır, beynəlxalq hüquqa uyğun olmalıdır. Almaniya burada təbii ki, öz dəstəyini göstərməyə hazırdır.*

*Azərbaycan və Avropa İttifaqı Şərqi Tərəfdaşlıq çərçivəsində daha da sıx əməkdaşlıq etmək istəyirlər və bu necə mümkündür və əsasən də ikitərəfli iqtisadi münasibətlərimizi nəzərə alaraq, həmçinin bu sualı da biz görüş çərçivəsində müzakirə etdik. Azərbaycan həm Almaniya, həm Avropa İttifaqı üçün əhəmiyyəti artan tərəfdaşdır. Ölkənin həm Almaniyanın, həm də Avropa İttifaqının enerji təchizatı üçün böyük potensialı mövcuddur, Azərbaycan öz töhfəsini verə bilər və eyni zamanda, bərpaolunan enerji də bizim əməkdaşlığımızın bir mövzusudur.*

**Gündəm**

***Prezident İlham Əliyevin bir neçə gün əvvəl Avropanın birinci, dünyanın isə üçüncü ən böyük iqtisadi mərkəzi sayılan Almaniyaya səfəri reallaşdı. Bu səfər tək ikitərəfli yox, həm də Avropa-Azərbaycan əməkdaşlığı kontekstində çox mühüm əhəmiyyət daşıyır. Öncə onu bildirək ki, son zamanlar Avropanın Cənubi Qafqazda, xüsusilə də Azərbaycan və Ermənistan arasında sülh danışıqları prosesində artan fəallığı fonunda köhnə qitənin aparıcı dövlətləri də bölgə ilə bağlı siyasi yanaşmalarında korrektələr edirlər. Bu baxımdan, Azərbaycan Prezidentinin Almaniyaya səfəri zamanı istər danışıqların mahiyyəti, istərsə də bölgədə yaşanan son proseslərlə bağlı həqiqətləri birbaşa olaraq dünyaya bəyan etməsi xüsusilə əhəmiyyətlidir.***

Çünki, son illərdə Azərbaycana qarşı bəzi Qərb dövlətləri və institutları tərəfindən ikili standartlara əsaslanan təzyiqlərin artmasının şahidi oluruq. Bu yanaşma Qərbin enerji təhlükəsizliyinin təminində Azərbaycana daha çox ehtiyac duyması, Bakını özünün etibarlı tərəfdaşı elan etməsi ilə bağlı siyasi kursuna tamamilə ziddir. Bu baxımdan Prezident İlham Əliyevin Berlin səfəri Azərbaycana, onun siyasi rəhbərliyinə göstərilən etimad və inamın daha bir təzahürüdür. İndi isə, iki ölkə arasındakı əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini göstərən bir neçə məqama diqqət yetirək. Prezident İlham Əliyev 2004-cü və 2007-ci illərdə Almaniyaya rəsmi, daha 11 dəfə isə işgüzar səfər edib. Sonuncu səfər bu il fevralın 16-19-da baş tutub və dövlətimizin başçısı Münxen Təhlükəsizlik Konfransında iştirak edib. Ötən il fevralın 15-də Prezident İlham Əliyev Almaniya Prezidenti Frank Valter Ştaynmayeri yenidən prezident seçilməsi münasibətilə təbrik edib. Eləcə də bu il yanvarın 13-də iki ölkənin prezidentləri arasında telefon danışığı olub. Söhbət zamanı prezidentlər Azərbaycan-Almaniya əlaqələrinin mövcud vəziyyətindən məmnunluqlarını bildirib, əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Azərbaycan və Almaniya arasında müqavilə-hüquq bazası olduqca genişdir. Bu sahədə indiyədək 77 sənəd imzalanıb. İki ölkə arasında enerji sahəsində əməkdaşlıq yüksələn xətlə inkişaf edir. SOCAR və Almaniyanın "Uniper" şirkəti 2013-cü ildə uzunmüddətli qaz tədarükü haqqında müqavilə imzalayıblar. 2020-ci il dekabrın 31-dən Cənub Qaz Dəhlizi Azərbaycan təbii qazını İtaliyadakı qəbul nöqtəsi vasitəsilə Avropa İttifaqının bazarına çatdırır. "Uniper" şirkəti Avropa bazarında təbii qazın əsas alıcılarından biridir.

Bu, şirkətin ən uzunmüddətli qaz alışı layihəsidir (2020-2045). Bu günə qədər "Azərbaycan Qaz Təchizatı" şirkəti tərəfindən "Uniper"ə 3,1 milyard kubmetr qaz təchiz olunub. Bundan əlavə, ötən il SOCAR tərəfindən Almaniya istiqamətində 1,764,5 min ton xam neft ixrac edilib. Ekspertlər də Azərbaycan Prezidentinin Almaniya səfərinin mühüm əhəmiyyətə malik olduğu qənaətindədir.

■ **Vüqar İskəndərov, Məclisin deputatı:.**

- Həyata keçirilən düşünülmüş və məqsədyönlü siyasət nəticəsində Azərbaycan hər ötən gün daha da inkişaf edir, daha da güclənir. Eyni zamanda, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artmaqdadır. Dünyada baş verən hadisələr fonunda inkişaf etmiş ölkələrin rəhbərlərinin Azərbaycan Prezidenti ilə müxtəlif platformalarda keçirilən görüşləri, həmçinin nüfuzlu beynəlxalq tədbirlərdə iştirak, hətta bu tədbirlərə ev sahibliyinin Azərbaycana həvalə edilməsi ölkəmizin beynəlxalq nüfuzundan xəbər verir.

Xüsusilə qlobal səviyyədə iqtisadi mənzərənin yenidən formalaşması zamanı artıq dünya dövlətləri də görür ki, Azərbaycan dünyada baş verən iqtisadi proseslərin müəyyən qədər mərkəzində yer almalıdır. Biz bu günlər bunu bir daha müşahidə edirik. Belə ki, Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfəri kifayət uğurlu olub, səfər çərçivəsində dövlətimizin başçısı Almaniya Prezidenti Frank-Valter Ştaynmayerlə, Kansler Olaf Şoltsla və bu ölkənin aparıcı şirkətlərinin rəhbərləri ilə olduqca səmərəli görüşlər keçirib. Qarşılıqlı anlaşma, hörmət və etimad şəraitində keçən görüşlərdə iqtisadi sahədə, o cümlədən sənaye, nəqliyyat, enerji, kənd təsərrüfatı, təhsil, texnologiyalar və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Görünən odur ki, Almaniya Azərbaycanın əhəmiyyətini qəbul edir. Çünki Almaniya Prezidenti və Kanslerinin mövqeyində bu ölkənin Azərbaycanla əlaqələrini inkişaf etdirmək əzmi açıq şəkildə nümayiş etdirildi. Yəni, dövlətimizin başçısının səfərə dəvət edilməsi, aparılmış müzakirələr, o cümlədən görüşlər zamanı səsləndirilən fikirlər bunu aydın göstərdi.

■ **Elşad Həsənov, politoloq:**

Almaniya ilə Azərbaycan arasında münbit siyasi və iqtisadi əməkdaşlıq mövcuddur. Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfəri münasibətlərin daha da inkişaf etdirilməsinə imkan verəcək. Almaniya Avropada Azərbaycanın ən vacib iqtisadi tərəfdaşlarından biridir. Azərbaycan isə Almaniyanın Cənubi Qafqazda ən mühüm iqtisadi tərəfdaşıdır. Azərbaycanla Almaniyanın iş birliyi XIX əsrin ikinci yarısından başlayır. 1863-cü ildə Almaniyanın "Simens qardaşları" firması tərəfindən Gədəbəy ərazisində yerləşən mis yataqları bazasında iri misəritmə zavodları tikilib. Bundan əlavə, "Simens qardaşları" firması Daşkəsən ərazisində kobalt yataqları bazasında kobalt zavodu inşa edib. Bu zavodların inşası nəticəsində xeyli sayda insan işlə təmin edilib, əhalinin maddi rifahı yüksəlib. Almaniya Azərbaycanın müstəqilliyini 1992-ci ilin 12 yanvarında tanıyıb. Azərbaycan ilə Almaniya arasında diplomatik münasibətlər 1992-ci ilin 20 fevralında qurulub. 2 sentyabr 1992-ci ildə Azərbaycanın Almaniyada səfirliyi, 22 sentyabr 1992-ci ildə Almaniyanın Azərbaycanda səfirliyi açılıb. Diplomatik münasibətlərin yaranmasından sonra Azərbaycan və Almaniya arasında əlaqələr mütəmadi olaraq inkişaf edib. Almaniya dünyanın ən iri iqtisadiyyatına malik olan ölkələrindən biridir, Avropanın lider ölkəsidir. "Almaniya iqtisadiyyatında xüsusi avtomobil istehsalı, kimya sənayesi, hərbi sənaye və digər sahələr çox inkişaf edib. Azərbaycanla Almaniya arasında iqtisadi göstəricilər ildən- ilə artır. Azərbaycanda çoxlu sayda Almaniya şirkəti fəaliyyət göstərir. Prezident İlham Əliyevin Almaniyaya səfəri əməkdaşlığın inkişafında yeni bir səhifə açacaq.

■ **Aydın Quliyev, politoloq:**

- Son bir həftədə Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Bakı zirvəsindən sonra Almaniya liderləri ilə yüksək görüşlərində 2-ci dəfə Ermənistana sülh şansı tanıdığını bəyan etdi. Ermənistanla bərabər onun himayədarlarını və beynəlxalq vasitəçiləri də Ermənistanı bu şansa lazımı qiymət verməsi üçün təşfiq etməyə çağırdı. Prezident İlham Əliyevin Ermənistana şans tanıma jestləri aydın hədəflərə və konkret məzmuna malikdir. Açıq mətnlə deyildi ki, təcavüzkar siyasət nəticəsində Ermənistan öz gələcəyini müstəqil qurmaq şanslarını itirir və sülh sazişinin imzalanmayacağı halda ümumiyyətlə dövlətçiliyini itirmək təhlükəsindədir.

Azərbaycan Prezidenti Ermənistana sülh şansları tanımaqla dövlətimizin konstruktiv siyasətini bir daha nümayiş etdirir. Prezident İlham Əliyevin sülh təkliflərinin konstruktivliyi ondadır ki, bunlar Ermənistanın 32 illik vandal siyasətinin mənfur nəticələri hələ də "göz dağı" kimi ortada olduğu bir şəraitdə irəli sürülür. Yəqin ki, Azərbaycanın yerində bir çox başqa ölkələr olsaydı, ardıcıl sülh mövzusundan yox, nəyin bahasına olursa olsun Ermənistandan ağır qisaslar alınması barədə danışardılar. Ermənistan rəhbərliyi və onun havadarları buna da dəyər verməlidir ki, Azərbaycan lideri onlara sülh şansını çox layiq olduqları bəzi məlum ağır şərtlərlə hələ irəli sürmür.

Prezident İlham Əliyevin bölgədə sülh gündəminə sadiqliyini sübut edən başqa bir fakta da baxmaq olar. Belə ki, Prezident İlham Əliyevin Almaniya görüşlərində Ermənistana növbəti dəfə sülh şansı tanıdığı bir vaxtda baş nazir Paşinyan bütün sülh prosesinin konsepsiyasına və məntiqinə zidd açıqlamalarını dövlətin adından rəsmən təqdim edirdi. Baş nazir Azərbaycanın təklif etdiyi sülh sazişi mətninə Ermənistana qarşı ərazi iddiası və Qarabağ ermənilərinin guya gələcək məhvinə əsas yaradılması kimi qiymət verirdi.

Sözsüz ki, Paşinyanın bu dəyərləndirmələri sülh prosesini pozmaq və prosesdə Azərbaycanın təşəbbüskar siyasətinə kölgə salmaq cəhdidir. Lakin Azərbaycan Prezidentinin Brüssel sülh formatını və Mişelin missiyasını qəbul etdiyini Almaniyada bir daha bəyan etməsi Paşinyanın bütün əks cəhdlərinin effektini məhf edən amillərdir.

Prezidentin Almaniya görüşləri vasitəsilə Ermənistana növbəti sülh şansı tanımasının gücünü artıran başqa bir amil də var. Belə ki, həm Ermənistan rəhbərliyi, həm də separatçılar Qarabağın erməni sakinləri ilə Bakının təmaslarına təxribatçı mövqelərini davam etdirirlər. Bütün dünyanın gözü qarşısında gedən proses budur ki, Azərbaycan lideri qarşı tərəfə dönə-dönə sülh şansları tanıdığı halda, separatçıların qondarma qurum təmsilçiləri Azərbaycanla heç bir inteqrasiya perspektivi tanımadıqlarını bəyan edir, Ermənistanın baş naziri isə özünə məxsus "müdrik tonla" təmas üçün Bakıya dəvət olunmuş erməni təmsilçilərinin Bakldan geri sağ salamat qayıda biləcəklərini şübhə altına alan bəyanat səsləndirir, dünyada sanki "bir-iki ermənini Bakıya" dərilərini soymağa və ya girov götürməyə çağırırlar" kimi absurd rəy yaratmaq istəyir. Halbuki dünya Bakıda azı 40-50 min erməninin hüsur içində yaşadığını yaxşı bilir. Son günlər Azərbaycanın Qarabağ bölgəsində məhz separatçıların, Ermənistanın və sülhməramlıların oynadıqları "trio oyunlar"a bacmayaraq, Azərbaycan Prezidenti öz sülh təşəbbüskarlığına nə qədər sadiq, ardıcıl və təmkinli yanaşdığını bir daha təsdiqləyir. Təsəvvür etmək çətin deyil ki, bu " trionun" dalda -bucaq yollarla Xankəndi ermənilərinə silah-sursat daşıdığı bir vaxtda Azərbaycan lideri bəlkə də son dəfə qarşı tərəfə sülh şansı tanımaqla hansı fədəkarlığa gedir. Bütün bunların isə sülh naminə edildiyini hər kəs digər postmüharibə reallıqlarında olduğu kimi qəbul edəcək.

✍ **Tahirə**

# Korsikada fransız zülmü

***Əsrlər boyu işğalçılığa üstünlük verən və dünyanın fərqli regionlarında xalqları böyunduruq altına salmaqla "fransız mədəniyyətini" yaymağa çalışan Fransa bu gün necə olubsa, dünyaya insan hüquqlarının, azsaylı xalqların azadlıq istəklərinin müdafiəçisi olduğuna dair nağıllar sırımaqdadır. Hətta bəzən hansısa ölkədə xalq tərəfindən seçilmiş liderləri diktator adlandıran fransız siyasətçilər Afrikada qəsbkar niyyətlərini hətta silah gücünə qorumaqda qalmalarına baxmayaraq, başqa dövlətləri guya kiçik xalqların azadlığını əlindən almaqda suçlayır.***



## Təhlil

Biz bunun bariz nümunəsini iki il öncə torpaqlarımızı ermənilərin işğalından xilas etmək üçün başlatdığımız hərbi əməliyyatlar zamanı da gördük. Dəfələrlə Azərbaycanın əleyhinə bəyanatlar səsləndirən, ölkəmizi hətta təhdid edən və işğalçı ermənilərlə birlik nümayiş etdirən Paris açıq-aşkar separatizmə dəstək verdi. Hətta Fransa parlamenti Qarabağ ermənilərini "dövlət olaraq tanımağa çağıran" qətnamə qəbul etməkdən belə çəkinmədi. Bəs Fransanın özü necə, azadlıdan, insan haqlarından söz açmağa layiqdir?

Heç kimə sirr deyil ki, bu ölkənin dənizaşırı vilayətlər şəklində idarə etdiyi xalqlar onillər ərzində azadlıq mücadiləsi aparsalar da, Paris onları silah gücünə ram edir. Bunlardan ən önəmlisi isə Avropanın öz daxilində yerləşən Korsika adasında uzun illərdir davam edən azadlığa çağırışların Fransa hökuməti tərəfindən boğulmasıdır.




Ən pisi isə odur ki, korsikalılar uzun illərdir adada fransız dili ilə yanaşı öz doğma dillərində danışmaq arzularını reallaşdıra bilmirlər. Parisdə anlayırlar ki, bu gün Korsika xalqı öz dilinin statusunu təmin etmiş olsa, saha muxtariyyətini, daha sonra isə azadlığını tələb edəcək. Bu səbəbdən də adada Korsika dilində danışmaq, Korsika mədəniyyətini inkişaf etdirmək və ümumiyyətlə, korsikalıların milli kimliklərini inkişaf etdirmələri hər cür üsulla yasaqlanır.

Fransanın iyrənc siyasi mühitində bərqərar olunmuş imperialist düşüncə tərzi həıtta imkan vermir ki, Korsikanın yerli qanunverici orqanında - parlamentdə yerli ana dilindən istifadə edilsin. Hansı ki, bununla bağlı Korsika Parlamenti Parisə müraciət də ünvanlamışdı. Amma sonu gözlənmilən kimi oldu - rədd cavabı verildi. Fransa məhkəməsi Korsika parlamentində korsika dilinin istifadə edilməsinin konstitusiyaya zidd olduğunu bildirən qərar verib. "Corse Martin" qəzeti yazır: "Məhkəmənin qərarında deyilir ki, dövlət ofisində danışıla bilən yeganə dil fransız dili olaraq qalır. Qətnamədə "Korsika xalqının varlığını" faktiki olaraq təsbit edən yerli qaydaların da konstitusiyaya zidd olduğu bildirilib". 350 min əhalisi olan adada ciddi reaksiya doğuran qərar, Fransa mərkəzi hökumətinin adadakı ən yüksək nümayəndəsi - Korsika valisi tərəfindən yurisdiksiya mövzusu edilib.

Korsika dilini qadağan etmək qərarı Fransa prezidenti Emmanuel Makronun yerli siyasətçilərlə daha çox muxtariyyət üçün danışıqlar apardığı bir vaxtda verilib. Korsika Parlamentinin sədri Mari-Antoinette Maupertuis və İdarə Heyətinin sədri Gilles Simeoni tərəfindən verilən ortaq bəyanatda, "Qərar korsikalı deputatları danışıqlar zamanı ana dillərində danışmaq hüququndan məhrum edir. Bu tendensiyanın qəbul edilməsi bizim üçün ağlasığmazdır" deyilir.

Bəyanatda həmçinin bildirilib ki, Korsika dilinin yaşaya bilməsi və inkişafı üçün ona fransız dili ilə yanaşı rəsmi dil statusu da verilməlidir. Müstəqillik tərəfdarı olan Fronte Partiyası məsələ ilə bağlı verdiyi açıqlamada qərarı "utancverici" adlandırıb. Korsika Millət Partiyasının lideri Jean-Kristofer Angelini isə qərarın onlar üçün "alçaldılma" olduğunu ifadə edərək, "haqsızlıq və rüsvayçılıq" ifadələrini işlədib.

Xatırladaq ki, İtalyan dilinə bənzəyən və dünyada 150 min insanın danışdığı Korsika dili UNESCO tərəfindən yox olmaq təhlükəsi ilə üzləşən dillər siyahısındadır. Millətçi hərəkatların yerli siyasətə hakim olduğu Korsikada daha çox muxtariyyət və hətta tam müstəqillik tələbləri Fransanın mərkəzi hökuməti ilə problemli münasibətə gətirib çıxarıb.

Ötən ay Makron Korsikanın hüquqi statusunda islahatlarla bağlı heç bir tabunun olmadığını desə də, Korsika adasının Fransanın bir hissəsi olaraq qalacağını vurğulamışdı. Parislə Korsika liderləri arasında yekun danışıqlar yalnız 1998-ci ildə öldürülən Korsika qubernatoru Klod Erinyakın qətlində əli olan iki nəfərin şərti azadlığa buraxılmasından sonra mümkün olub. Fransanın ən kasıb bölgəsi olan Korsika adası dil və mədəniyyəti ilə materikdən fərqlənir və coğrafi baxımdan İtaliyaya daha yaxındır. Fransanın 18 bölgəsindən biri olan Korsika adası 2018-ci ildən məhdud muxtariyyət təmin edən "xüsusi ərazi bütövlüyü" statusu ilə idarə olunur. Ötən il Klaude Erignakın qətlinə, əslində isə müstəqillik tərəfdarı olduğuna görə ömürlük həbs cəzasına məhkum edilən Kolonnanın həbsxanada hücuma məruz qalması və komaya düşməsi adada gərginliyi artırıb və şiddətə səbəb olub.

Bu arada, həbsdə olan müstəqillik tərəfdarı İvan Kolonnaya həbsxanada edilən hücuma görə məsuliyyətin birbaşa Fransa dövlətinin üzərində olduğunu da vurğulamaqla, DİN başçısı özünü guya milli azlıqlara qarşı çox humanist davranan, demokratik olduğunu göstərən biri kimi göstərməyə çalışıb. Hətta o, bu imici qazanmaq üçün təmsil etdiyi Makron hökumətini məsuliyyətin altına itələməyə səy göstərib.

Deməli, DİN rəhbərinin gələcək siyasi iddiaları var və bunu yaxın illərdə hamı görəcək. Özü də çox qəribədir ki, məhkəmənin məlum qərarından bir müddət öncə Fransanın daxili işlər naziri Gerald Darmanin Korsika adasına muxtariyyət verə biləcəklərini açıqlamışdı. O, "Corse Matin" qəzetinə demişdi ki, hakimiyyətlə "muxtariyyət" mövzusunda "görünməmiş dialoq"a başlayacaq.

Amma belə bir ifadə də işlətmişdi ki, amma muxtariyyətin nə olduğunu bilmək lazımdır. Yəni korsikalılar özlərini hansı həddə qədər azad hiss edəcəklərini müəyyən etməlidirlər. O dövrdə "Conse Martin" qəzetinin keçirdiyi sorğu nəticəsində məlum olub ki, Korsika sakinlərinin 71 faizi və korsikalı fransızlar muxtariyyətə "hə" deyir, 32 faizi isə hətta tam müstəqilliyi dəstəkləyir. Qeyd edək ki, Fransada əhalinin 53 faizi Korsikanın muxtariyyətinə "hə" deyib. Mütəxəssislərin diqqət çəkdiyi məqamlardan biri də 1989-cu ildə 18 faiz olan bu nisbətin təxminən üç dəfə artmasıdır.

Əslində Korsika əhalisi heç vaxt Fransa ilə mehriban və səmimiyyətə əsaslanan birlik içində olmayıb. Bu səbəbdən də 61 yaşlı Kolonnanın həbsxanada qətlə yetirilməsi onların küçəyə tökülməsi üçün sadəcə bəhanə sayılmalıdır. Təsəvvür edin, 350 min nəfər əhalisi olan adanın inzibati mərkəzi Ayaçço şəhərində 14 minlik etiraz nümayişinin təşkil olunması Korsikanın timsalında Fransaya qarşı çox böyük üsyandır. Həm də üsyanın şüarı çox kəskin olub və Fransanın əsl qiymətini verib. Belə ki, insanlar "Qatil Fransa dövləti" şüarları səsləndirərək öz azadlıqlarını tələb ediblər.

**Əslində Korsika əhalisi heç vaxt Fransa ilə mehriban və səmimiyyətə əsaslanan birlik içində olmayıb. Bu səbəbdən də 61 yaşlı Kolonnanın həbsxanada qətlə yetirilməsi onların küçəyə tökülməsi üçün sadəcə bəhanə sayılmalıdır**



**Qısası, ataların bir deyimi var:** Öz gözündə tir görməyən, başqasının gözündə tük axtarar. Türk millətinin qatı düşməni olan fransızlar tarixin bütün dövrlərində başqa xalqlara qarşı müstəmləkə siyasəti yürüdüb, zəif xalqları qan içində boğaraq özünə tabe edib. Bunun davamıdır ki, günümüzdə də fransızların başqalarının qan və göz yaşları içində yaradılan dövləti xristian həmrəyliyi nümayiş etdirərək müsəlman Azərbaycanına qarşı "səlib yürüşü" nümayiş etdirir. Ərazisi 8,7 min kvadratkilometr, əhalisinin sayı 350 min nəfər olan, Fransadan milli-etnik xüsusiyyətlərinə görə tamamilə fərqlənən Korsikanın azadlığını təhdid edib, azadlıqsevərlərini qətlə yetirən Fransa, 44 günlük müharibədən sonra ərazi və əhalisinə görə Korsikadan üç dəfə kiçik, özü də tarixi azərbaycan torpaqlarında çar Rusiyası tərəfindən yaradılan Qarabağın dağlıq hissəsində bir bölgənin "erməni dövləti" olaraq tanınmasına cəhd edir.

Heç bir ədalətə, mənəvi dəyərlərə və milli əxlaqa sığmayan ikiüzlü fransız riyakarlığı bax buna deyərlər. Amma ümid edirik ki, Korsika xalqı öz azadlığını qəddar və qaniçən, insanlığın düşməni olan Fransadan gec-tez alacaq. Fransızların Azərbaycan torpaqlarında qondarma erməni dövləti qurmaq xəyalları da elə xəyal olaraq qalacaq. Fransada hər kəs anlamalıdır ki, damarlarından türk qanı axan Azərbaycan xalqı afrikalı və ya ərəb deyil ki, onları öldürərək kəllə sümüklərini Paris muzeylərində sərgiləyərək insan qanına susamış fransız xalqını sevindirsinlər. Paris zamanın türk zamanı olduğunu anlamalıdır.

*✍ Vüsal Tağıbəyli*

## Media

# "Münaqişə jurnalistikası və jurnalistlərin təhlükəsizliyi"



***Vyana şəhərində keçirilən ATƏT-in insan ölçüsü üzrə birinci əlavə görüşü çərçivəsində Medianın İnkişafı Agentliyinin və Azərbaycan Respublikasının ATƏT yanında Daimi Nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Münaqişə jurnalistikası və jurnalistlərin təhlükəsizliyi" mövzusunda tədbir keçirilib.***

Tədbirin təşkilində əsas məqsəd münaqişə zonalarında jurnalistlərin qarşılaşdığı təhlükə və çağırışlar barədə məlumatlılığın artırılması, media ekspertlərinin məsələ ilə bağlı fikirlərinin öyrənilməsi və təcrübə mübadiləsinin aparılması, münaqişə zonalarında fəaliyyət göstərən jurnalistlərin təhlükəsizliyinin gücləndirilməsi məqsədilə müxtəlif qabaqcıl və uğurlu strategiyaların araşdırılmasıdır.

Geniş auditoriya üçün açıq qapı formatında keçirilən tədbirdə iştirakçı dövlətlərin jurnalistləri, media mütəxəssisləri və vətəndaş cəmiyyəti nümayəndələri iştirak edib.

Agentliyin Beynəlxalq əlaqələr və strateji planlaşdırma qrupunun rəhbəri, medianın inkişafı məsələləri üzrə mütəxəssisi Rasim Bağırovun moderatorluğu ilə keçirilən tədbirdə Dr. Bruno Kreiski Fondunun Müasir Siyasi Tarix üzrə Təhlillər İnstitutunda elmi işçi, Vyanada yerləşən siyasi akademiya - Karl Renner İnstitutununda Mərkəzi və Şərqi Avropa üzrə hüquq və siyasət məsləhətçisi Anis Bajrektarevic; Çin və Qloballaşma Mərkəzinin baş əməkdaşı, Tsinxua Universitetinin Araşdırma Mərkəzinin baş məsləhətçisi, Vyana Amadeus Beynəlxalq Məktəbinin baş beynəlxalq məsləhətçisi, köşə yazarı və "China Daily", "China Global TV Network", "China Radio International"ın şərhçisi Dr. Harvey Dzodin; Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Gənc Demokratlar İnstitutunun sədri Yeganə Hacıyeva; "freelance" jurnalist, "blogger" Adnan Hüseyn çıxış edib.

Jurnalist peşəsinin cəmiyyətdə ən vacib və əsas peşələrdən biri olduğunu qeyd edən Anis Bajrektarevic jurnalistlərin münaqişə zonalarında böyük təzyiq altında fəaliyyət göstərdiyini bildirib. O, jurnalistlərin müxtəlif həyati risklərlə üzləş-



diyini, onların xüsusilə mina və digər partlayıcı vasitələrin partlaması nəticəsində həlak olduğunu və ya ağır yaralandığını qeyd edib, peşə öhdəliklərini yerinə yetirmələri və cəmiyyətə xidmət etmələri üçün jurnalistlərin təhlükəsizliyinin beynəlxalq səviyyəsində təmin edilməsinin vacibliyini vurğulayıb. Yeganə Hacıyeva çıxışında jurnalistlərin münaqişələri işıqlandırarkən nəzərə almalı olduğu məqamlar, münaqişə və jurnalistika anlayışları arasındakı əlaqənin tənzimləməsində beynəlxalq standartların lokal istifadəsi barədə danışmış, ermənilərin basdırdıqları minaların qurbanı olmuş azərbaycanlı jurnalistlər haqqında geniş məlumat vermişdir. Dr. Harvey Dzodin münaqişə zonasında fəaliyyət göstərən jurnalistlərin qarşılaşdığı çətinliklərin aradan qaldırılması, xüsusilə minaların basdırıldığı yerlərin təyin edilməsi üçün müxtəlif texnologiyaların araşdırılması və tətbiq edilməsinin vacibliyini diqqətə çatdırıb, bu istiqamətdə özəl şirkətlərlə səmərəli əlaqələrin qurulmasının əhəmiyyətini qeyd edib.

Adnan Hüseyn jurnalistlərin mürəkkəb məsələlərin və perspektivlərin aydınlaşdırılmasına kömək edən, qərəzsiz və faktlara əsaslanan xəbərlərin yayılmasında mühüm rol oynadığını, həqiqətlərin ictimaiyyətə çatdırılmasına müstəsna töhfə verdiyini qeyd etmiş, istər beynəlxalq səviyyədə tanınmış ərazilərinin otuz ilə yaxın müddətdə işğalı zamanı, istərsə də Vətən müharibəsindəki qələbədən sonra uzun illər boyu Azərbaycanın saxta xəbərlərə məruz qaldığını bildirmişdir.

Tədbir çərçivəsində münaqişə zonalarında fəaliyyət göstərən jurnalistlərin üzləşdiyi problemlər və risklər barədə məlumat verilib, onların təhlükəsizliyinin və müdafiəsinin gücləndirilməsi üçün potensial həll yollarının müəyyən edilməsinə dair fikir mübadiləsi aparılıb.

## Təxribat

# İranın Nizami "sevdası"

***İranın anti-Azərbaycan fəaliyyəti səngimir. Siyasi, hərbi və dini sahələrlə yanaşı, indi də mədəni-ədəbi sərvətimizlə bağlı təxribatlara əl atılır. Dahi Azərbaycan şairi Nizami Gəncəvi ilə bağlı müəyyən əsaslandırılmamış iddialar irəli sürülür. Qeyd edək ki, İranın dahi şairin adından istifadə edərək müəyyən bəyanatlar səsləndirməsi paytaxtımızda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə X Qlobal Bakı Forumu ilə eyni vaxta təsadüf etdi. Forumda çıxış edən Prezident İlham Əliyevin Nizami sərvətinin Azərbaycan xalqına məxsusluğu ilə bağlı fikirləri xüsusilə diqqətəlayiqdir:***



"Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə adını daşıdığı dahi Azərbaycan şairi Nizami Gəncəvinin xatirəsinə və irsinə olan dərin hörmətlə bağlı təşəkkürümü bildirmək istəyirəm. Nizami Gəncəvi Azərbaycanın qədim şəhərlərindən olan özünün doğma Gəncə şəhərində dünyaya göz açıb, yaşayıb, orada vəfat edib və dəfn olunub. Onun müdrikliyi və istedadı Azərbaycan xalqının istedadını və müdrikliyini təcəssüm etdirir".

AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblı "Həftə içi"nə açıqlamasında bildirib ki, İran istər Pəhləvilər dönəmində, istərsə də İran İslam Respublikası, yəni molla rejimi qurulandan sonra daim Azərbaycanın ədəbi-siyasi şəxsiyyətlərinə, yer adlarına, milli dəyərlərinə qarşı qərəzli, əsassız iddialarla çıxışlar edib. Bu sırada Azərbaycan şairi dahi Nizami Gəncəviyə "fars şairi" damğası ilə yiyələnmək iddiası da var. Onun sözlərinə görə, İranın molla rejimi müxtəlif adlar altında tədbirlər keçirərək dahi Azərbaycan şairi Nizami Gəncəvinin İran - fars şairi olmasını dilə gətirir. Hər vəchlə istər ölkə daxilində, istərsə də xaricdə Nizamini fars şairi, onun əsərlərini fars ədəbiyyatının inciləri kimi təqdim etməklə, həm də Azərbaycan ərazilərini də öz adına çıxmağa çalışır:

"Nizami Gəncəvi" mövzusu istər Azərbaycanda, istərsə də xarici ölkələrdə həmişə aktual mövzu olub. İranda bir sıra yazarlar, ədiblər, elm adamları dahi Nizaminin dövrün tələblərinə uyğun olaraq öz əsərlərini fars dilində yazmasından istifadə edərək, onun milliyyəti, doğulduğu yer və mənsubiyyəti ilə bağlı qərəzli mövqelər oraya qoyublar.

Belə ki, İran Xarici İşlər Nazirliyi sözçüsünün martın 5-də "Nizaminin anım mərasimi" ilə bağlı keçirilən bir tədbirdə dediyi sözlər diqqətdən yayına bilməz: "Fars dili məhəbbət, dostluq və irfan dilidir. Şübhəsiz, Nizami Gəncəvinin özünəməxsus yeri var və onunla müqayisə olunan böyük şairlər azdır". O deyib ki, Nizami Gəncəvi indiki Azərbaycan şəhərində doğulub və məzarı da oradadır. Təbii ki, burada ziddiyyət meydana çıxır. Sözçü Gəncənin də guya İran şəhəri olmasına eyham edib. Molla rejimi bir tərəfdən Nizami Gəncəvinin Gəncədə doğulduğunu etiraf edir, digər tərəfdən, əks mövqedən çıxış edirlər. Biz ümumiyyətlə, əgər farsdilli ədəbiyyata nəzər yetirsək, görəcəyik ki, o dövrün Azərbaycan klassikləri - Nəvai, Cami, Rumi, Xəqani, Məhsəti, Nəsimi, Məhəmməd Füzuli və digər Azərbaycanın böyük klassikləri - hər biri fars dilinə müraciət edib, əsərlər yazıblar. Nizami Gəncəvi kimi, həmin dahi ədiblərin də öz əsərlərini fars dilində yazması onların fars millətinə mənsub olduqlarını ifadə etmir. Bunu nə Azərbaycan, nə də dünya qəbul edir. Bu mənada Nizaminin fars dilində yazması dövrün tələbi idi". S.Talıblı belə bir fonda Prezident İlham Əliyevin birbaşa dəstəyi, Nizami Gəncəvi Beynəlxaq Mərkəzinin təşkilatçılığı ilə martın 9-da Bakıda "Dünya bu gün: çağırışlar və ümidlər " mövzusunda keçirilən X Qlobal Bakı Forumunu və Azərbaycan dövlət başçısının Nizami Gəncəvi ilə bağlı dediyi fikirləri yerində və doğru hesab edərək, yüksək qiymətləndirib: "Yerli və xarici nizamişünaslıqda aparılan tədqiqatlardan da görünür ki, Nizami doğulub-boya-başa çatdığı Gəncə şəhərini özünə təxəllüs seçmişdir. Şairin məhz bu şəhərdə dəfn olunması, eləcə də ata-babasının, dayısının da dövrün savadlı, tanınmış adamlarından olması onun Azərbaycan türkü olduğunu təsdiq edən faktorlardandır. O dövr - XII əsr Azərbaycanda intibah dövrü sayılır. Azərbaycanda Əbula Gəncəvi, Qiyami Gəncəvi, Məhsəti Gəncəvi kimi şairlərin olması, sənətkarlığın, xalçaçılığın, duluzçuluğun və ticarətin inkişafı, eləcə də ipək yolunun Gəncədən keçməsi, Nizami şəxsiyyətinin yetişməsində xüsusilə rol oynamışdır".

*✍ Tahirə Qafarlı*

# Heydər Əliyev və hüquqi dövlət quruculuğu

## Layihə

***Çoxəsrlik dövlətçilik tariximizdə Ümummilli lider Heydər Əliyevin fəaliyyəti özünəməxsus yer tutur. Məhz 1969-cu ilin iyulunda onun respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi. Tarixə nəzər salsaq görərik ki, əslində, demokratik hüquqi dövlət quruculuğu yolunu tutan Azərbaycan xalqı milli müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə qarşılaşmışdı.***



O dövrdə ölkəmizdə hökm sürən hərcmərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi, insanların dinc və təhlükəsiz yaşamasını qəsdə məruz qoymuşdu. Bu baxımdan yenicə müstəqillik əldə etmiş bir dövlətin inkişafında mükəmməl qanunvericilik bazasının yaradılması, qanunun aliliyinin təmin edilməsi mühüm şərt idi. ”Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir” deyən görkəmli şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə zaman keçdikcə bu sahədə böyük uğurlar qazanıldı.

Bu istiqamətdə əldə olunan ən vacib uğurlardan biri yeni Konstitusiya layihəsinin hazırlanması idi. Ümummilli lider yeni Konstitusiya layihəsinin hazırlanmasını öz üzərinə götürdü və bununla bağlı xüsusi yaradılmış Komissiyaya şəxsən rəhbərlik etdi. 1995-ci ilin noyabrında isə ümumxalq səsverməsi yolu ilə Konstitusiyamız qəbul edildi. Bu tarixi günlərdə ulu öndər Heydər Əliyev deyirdi:

”Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq”.

Beləliklə, 1995-ci il noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. Ulu öndərin həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhval-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ əldə etdilər. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

1995-ci ildən həm də əfv və amnistiya təsisatları bərpa edildi, həmin vaxtdan indiyədək qəbul olunmuş amnistiya aktları, əfv fərmanları yüzlərlə şəxsin azadlığa qovuşmasına, cəzasının azaltılmasına imkan yaratdı. Hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü önə çəkən Heydər Əliyev ölkədə göstərilən hüquqi yardımın səviyyəsinin yaxşılaşdırılması təşəbbüsünü irəli sürdü. Bu dövrdən başlayaraq dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insanların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə mühüm addımlar atıldı. Şərq aləmində ilk dəfə olaraq dahi şəxsiyyətin təşəbbüsü ilə 1993-cü ildə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyuldu. Və bu addım insan hüquq və azadlıqlarının qorunması sahəsində tarixi bir hadisəyə çevrildi. 1998-ci il fevralın 10-da isə Azərbaycanda ölüm cəzası ləğv edildi. Ulu öndərin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi isə bu orqanın səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət idi. Bu baxımdan 1999-cu ildə qəbul olunmuş “Prokurorluq haqqında” qanunun əhəmiyyəti xüsusi vurğulanmalıdır. Mütərəqqi ruhlu bu qanun prokurorluğun totalitar rejimə xas bəzi funksiyalardan azad olmasına, onun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılmasına ciddi hüquqi zəmin formalaşdırdı.

Hüquqi islahatlar sahəsində qəbul edilmiş çox önəmli sənədlərdən biri də 1996-cı il 8 iyun tarixdə imzalanmış “Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında” sərəncamdır. Məhz bundan sonra beynəlxalq standartlara uyğun qanunvericilik aktlarının hazırlanmasına başlanıldı. “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmə və hakimlər haqqında”, “Prokurorluq haqqında”, “Polis haqqında” mütərəqqi ruhlu qanunlar və digər normativ-hüquqi aktlar, Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessul məcəllələri, eləcə də digər məcəllələr qəbul olunmuş, qanunvericilikdə insanların təqsirsizlik pezumpsiyası, qanunçuluq, qanun qarşısında bərabərlik, ədalət, təqsirə görə məsuliyyət və digər humanist prinsiplər öz əksini tapmışdır.

Vətəndaşların Konstitusiyada və digər aktlarda müəyyən edilmiş hüquq və azadlıqlarının təmini baxımından xüsusi önəm daşıyan ədalət mühakiməsinin əlçatanlığı və müstəqilliyi, hüquqi dövlət quruculuğu prosesinin ən vacib mərhələlərindən biri kimi qiymətləndirilməlidir ki, görülmüş bütün bu işlərin və həyata keçirilmiş əsaslı məhkəmə-hüquq islahatlarının nəticəsində keçmiş sovet ittifaqından qalma məhkəmə sistemi demək olar ki, tamamilə aradan qaldırıldı, yeni və qabaqcıl inkişaf etmiş ölkələrin təcrübəsinə söykənən üçpilləli müstəqil

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Vətəndaş cəmiyyəti,
hüquqi dövlət quruculuğu

məhkəmə hakimiyyəti sistemi yaradıldı, hakim korpusunun demokratik əsaslarla formalaşdırılması prosesi sürətləndirildi. O da xüsusi qeyd edilməlidir ki, müstəqil məhkəmə sisteminin formalaşdırılması işində Məhkəmə-Hüquq Şurasının təsis edilməsi amili də mühüm rol oynadı.

Fəaliyyətini şəffaflıq prinsipi əsasında quran Şuranın fəaliyyəti əsasında hakim heyətinin müsabiqə əsasında formalaşdırılması bu baxımdan da xüsusi önəm kəsb edirdi. İnsan hüquqlarının qorunmasına müstəsna əhəmiyyət verən Ümummilli liderin 1998-ci ildə imzaladığı “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanında bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih müəyyən edilmiş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdı. Ölkəmizdə insan hüquqlarının qorunması üzrə yeni sistemin yaranmasının parlaq təzahürlərindən biri də “İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) haqqında” Qanunun qəbul edilməsidir. Belə bir hüquqi təsisatın yaradılması qabaqcıl dövlətlərdə tətbiq edilən səmərəli institutların ölkəmizdə fəaliyyət göstərməsinə şərait yaratmışdır.

Göründüyü kimi, Ümummilli liderin rəhbərliyi ilə hüquqi dövlət quruculuğu prosesi çərçivəsində demək olar dövlət hakimiyyətinin bütün qollarında əsaslı islahatlar aparıldı, idarəetmə sisteminin bütün istiqamətlərinin inkişafı üzrə tarixi əhəmiyyət kəsb edən qərarlar qəbul olundu, Azərbaycan xalqının dövlətçilik tarixində köklü və mütərəqqi işlər görüldü. Beləliklə, 1993-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövr olmaqla, dünya birliyinə inteqrasiya yolunda da ona çox böyük nailiyyətlər qazandırdı. Təbii ki, görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi müdrikliyi və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi.

### Yeri gəlmişkən...

Onu da qeyd edək ki, məhz Ümummilli liderin təməlini qoyduğu islahatların məntiqi nəticəsidir ki, bu gün müasir Azərbaycanın inkişafı davamlı prosesə çevrilib.

Vaxtilə həyata keçirilmiş siyasi və hüquqi islahatlar xətti indi Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Məhz bu fəaliyyətin nəticəsidir ki, artıq Azərbaycan qalib ölkə olaraq keyfiyyətcə yeni mərhələyə qədəm qoyub və beynəlxalq arenada əsas söz sahiblərindən birinə çevrilib.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ “Daxil olan şikayətlər deməyə əsas verir ki, istehlakçıların qorunması adı altında əsassız və sərt yoxlamalar keçirilir”. Bunu KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov” deyib:

”Bəzi məsələlər var ki, sərt mövqe göstərməliyik. Xüsusilə də insanların sağlamlığına zərər varsa. Ancaq elə məsələlər də var ki, sahibkarlarla təmkinli davranmalıyıq”, - deyə O. Məmmədov əlavə edib.

---

■ Hesablama Palatası tərəfindən Naxçıvan Dövlət Universitetində (NDU) yoxlamalara başlanılıb. Bu barədə Hesablama Palatasından bildirilib. Rəsmi məlumata görə, yoxlamalar Hesablama Palatasının iş planına uyğun həyata keçirilir.

---

■ “Özbəkistan Respublikasının Konstitusiyası haqqında” qanun layihəsinə ölkə prezidentinin səlahiyyətlərinin 5 ildən 7 ilə qədər artırılması barədə bənd daxil edilib. Özbəkistanın hazırkı Konstitusiyasına əsasən, ölkədə prezidentlik müddəti 5 il təşkil edir. Müvafiq dəyişikliklər 2011-ci ilin dekabrında qəbul edilib.

---



■ Qərbi Azərbaycan tarixinin akademik nəşri hazırlanacaq. Bunu Tarix İnstitutunun Qərbi Azərbaycan şöbəsinin müdiri, professor Cəbi Bəhramov deyib. O bildirib ki, həmçinin bu ərazinin çoxsaylı tarixi-coğrafi xəritələrdən ibarət atlasının hazırlanması da qarşıda duran əsas hədəflərdəndir.

---

■ Tikinti işlərinin dayandırılmasına əsas verən hallar dəqiqləşdirilir, pozuntuların aradan qaldırılması üçün verilən müddət 1 ildən 6 aya endirilir. Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında müzakirəyə çıxarılan Şəhərsalma və Tikinti Məcəlləsinə təklif olunan dəyişiklikdə əksini tapıb.

---

■ Riyad Qasımov Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinə rəis təyin olunub. Riyad Qasımov bu təyinata qədər Komitədə və ”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində aparat rəhbəri olub. O yeni vəzifəsinin icrasına martın 1-dən başlayıb.

---



■ Amerikaya məxsus PUA-nın Qara dəniz üzərində görünməsi təxribatdır. Bunu Rusiyanın ABŞ-dakı səfiri Anatoli Antonov deyib. O, Rusiya Müdafiə Nazirliyinin PUA-nın transponderləri söndürülərək uçduğu barədə bəyanatını təkrarlayıb. Antonov bildirib ki, PUA xüsusi hərbi əməliyyat zonasına daxil olub. Qeyd edək ki, Qara dənizdə Rusiya qırıcısı ilə ABŞ PUA-sı toqquşub, nəticədə PUA dənizə düşüb.

---

■ Astronomlar, təxminən, 175 işıq ili uzaqlıqdakı günəşəbənzər ulduzun ətrafında fırlanan iki yeni ekzoplanet kəşf ediblər. Şamaxı Astrofizika Rəsədxanasından verilən xəbərə görə, HIP 104045 b və HIP 104045 c olaraq qeyd olunan planetlər müvafiq olaraq Yupiterin analoqu və super-Neptun kimi təsnif edilir. Bu yeni kəşf haqqında məqalə arXiv serverinə yerləşdirilib.

# Qarabağ erməniləri ilə müzakirələrin yeni ünvanı - Bakı

***Təcavüzkar Ermənistan Azərbaycanla müharibədə məğlub olaraq üçtərəfli saziş əsasında kapitulyasiyaya imza atsa da, üzərinə düşən öhdəlikləri yerinə yetirmir, müharibə ritorikasından əl çəkmir. Bölgədə münaqişənin yaradılmasında maraqlı olan erməni havadarları vəziyyətin yenidən gərginləşdirilməsi üçün hər cür təxribat, təzyiq vasitələrindən istifadə edirlər.***



Bu gərginlik, müharibə ocağı Azərbaycan ərazisində yaradılıb və təbii olaraq ölkəmiz istənilən xarici təsirlərə baxmayaraq, regionda revanşist iddiaların gərginlik yaratmasına imkan yaratmaq istəmir və Ermənistanı danışıqlar yolu ilə sülhə dəvət edir.

Azərbaycan Dövləti Qarabağda yaşayan erməni icmasının nümayəndələrini ikinci dəfədir ki, danışıqlara dəvət edir. Bu dəfə danışıqların məkanı Bakıdır. Mövcud situasiyada, yəni “Qarabağda yeni istehkamlar quran, beynəlxalq missiyanı müxtəlif iddia və bəhanələrlə ölkəmizə gətirməyə çalışan, başqa ölkə ərazisində özünə əlavə statuslar tələb edən, münaqişəni alovlandırmaq üçün müxtəlif hərbi təxribatlar törədən Ermənistan və onun Qarabağdakı separartçı töküntüləri Azərbaycanın bu təklifini qəbul edəcəkmi?” sualı birmənalı olmayan ehtimalları ortaya çıxarır. Eyni zamanda sual olunur: “Qarabağ bölgəsində yaşayan azsaylı ermənilərlə ikinci görüşün paytaxt Bakıda keçirilməsi reinteqrasiya müzakirələri üçün hansı imkanı, şansı yarada bilər?”.

■ **Bu barədə hafta.az-a açıqlama verən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti, politoloq Mətin Məmmədli bildirir ki, artıq Azərbaycan hakimiyyətinin təyin etdiyi nümayəndə heyəti və erməni icmasının nümayəndələri arasında birinci raund danışıqlar Xocalıda keçirilib. Onun sözlərinə görə, II görüşün Bakıda keçirilməsinin planlaşdırılması tamamilə doğru addımdır və belə də olmalıdır.**

“Çünki biz digər ərazilərimizdə olduğu kimi, Qarabağda yaşayan erməni vətəndaşlarımızı da öz sakinlərimiz kimi qəbul edir, onların

> “
> *Biz digər ərazilərimizdə olduğu kimi, Qarabağda yaşayan erməni vətəndaşlarımızı da öz sakinlərimiz kimi qəbul edir, onların mövcud problemləri ilə maraqlanırıq. O problemlər isə ilk növbədə Azərbaycan dövləti daxilində, Bakıda həllini tapmalıdır*

mövcud problemləri ilə maraqlanırıq. O problemlər isə ilk növbədə Azərbaycan dövləti daxilində, Bakıda həllini tapmalıdır. Erməni sakinlərimiz Ermənistanın və digər xarici təsirlərin revanşist təsirlərindən çıxarılmalı və dərk etməlidirlər ki, Azərbaycan ərazilərində yaşayırlar. Dövlətin konstitusiyasından, qanunlarından kənar iddialarla çıxış edə bilməzlər”. M.Məmmədli hesab edir ki, Qarabağda yaşayan erməni sakinləri məsələlərə bir qədər ayıqbaşla, konstruktiv yanaşsalar, ikitərəfli danışıqlar prosesindən real nəticələr əldə etmək olar. Onun qənaətinə görə, əgər Qarabağda yaşayan ermənilər yenə də təcavüzkar Ermənistanın və qondarma rejimin girovu olaraq qalacaqlarsa, o zaman bu danışıqlardan müsbət nəticə gözləməyə dəyməz. “Hər halda Azərbaycan Dövləti bütün cəhdlə çalışır ki, bölgədə problemlər danışıq, sülh yolu ilə həllini tapsın və nəhayət, biz davamlı sülhə nail olaq. Hesab edirəm, ölkəmizə qarşı təhlükəni aradan qaldırmaq, sülhə nail olmaq üçün danışıqlar yeganə yol deyil. Ermənistan öz təcavüzkar, revanşist siyasətindən əl çəkməsə ərazilərimizdə yaşayan ermənilər vasitəsilə revanşizmi alovlandırsa, ölkəmiz mütləq hərbi müstəvidə özünün maraqlarını, mənafeyini qorumalı olacaq”.

✍ ***Tahirə Qafarlı***

# Rusiya Qarabağa əlavə qoşun yeritməyə çalışır

**Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu ilə hafta.az üçün budəfəki söhbətimiz, əsasən, Qarabağın dağlıq hissəsində və Azərbaycan-Ermənistan sərhədində son vaxtlar baş verənlər, martın 1-də Qarabağdakı erməni nümayəndələri ilə Xocalıda Rusiya “sülhməramlı” komandanının bilavasitə təşkilatçılığı və iştirakıyla keçirilən görüş və bundan cəmi 4 gün sonra Turşsu-Xəlfəli-Xankəndi yolunda baş vermiş qanlı təxribatdan sonra Qarabağ ətrafındakı hərbi-siyasi durum və bütün bunların fonunda Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının gələcəyi və s. barədə danışdıq.**

## Müsahib

***- Martın 1-də Rusiya “sülhməramlı” komandanının bilavasitə təşkilatçılığı və iştirakıyla deputat Ramin Məmmədovun rəhbərliyi ilə Azərbaycan nümayəndələrinin Xocalıda separatçı rejim məmurlarının başçılıq etdiyi Qarabağ ermənilərinin nümayəndələri ilə görüşündən və ondan cəmi 4 gün keçmiş Turşsu-Xəlfəli-Xankəndi yolunda baş vermiş qanlı təxribatdan sonra Qarabağ ətrafında hərbi-siyasi durumu necə xarakterizə edərdiniz?***

- Qeyd etdiyiniz görüşdən sonra baş verən təxribat təsadüfi kimi qiymətləndirilməməlidir. Rusiya var gücü ilə çalışır ki, Ermənistan-Azərbaycan, yaxud erməni-azərbaycanlı münaqişəsini, qarşıdurmasını daha da gücləndirsin. Öncə buna iki ölkənin sərhədi boyu gərginləşdirmə yaratmaqla nail olmağa çalışırdısa, Avropa Birliyinin həmin sərhədə Ermənistan tərəfdən müşahidəçilər yerləşdirməsindən sonra Kreml üçün vəziyyət xeyli dərəcədə mürəkkəbləşdi. Həmin müşahidəçilər baş verəcək və yaxud baş verə biləcək hansısa təxribatın kimin tərəfindən, haradan, necə qaynaqlandığını müəyyən edəcəklər və təbii ki, müvafiq də tədbir görəcəklər. Bunu nəzərə alan Moskva bütün fəaliyyətini Qarabağın dağlıq hissəsində himayə etdiyi separatçı rejimin nəzarətində olan əraziyə yönəltdi.

Həmin 1 mart görüşü və onun ardınca törədilən təxribatın baş verməsi məhz ona hesablanmışdı ki, azərbaycanlılarla ermənilər arasında hansısa danışığın effektiv olmadığı nümayiş etdirilsin. Rusiya bunu göstərməyə çalışırdı və buna da müvəffəq oldu. Bu da təsadüfi deyildi ki, hadisə məhz ABŞ-ın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi və Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin regiona səfəri ərəfəsində baş verdi, yaxud daha dəqiq desək, törədildi. Bütün bunlar da göstərir ki, Rusiyanın bir məqsədi Azərbaycanla Ermənistan arasında danışıqların, ümumiyyətlə, sülhün mümkün olmadığını göstərmək, digər məqsəd isə Qarabağın dağlıq hissəsinə, daha dəqiq desək, Azərbaycan ərazisinə əlavə hərbi qüvvələr yerləşdirməkdir.



Məhz bu səbəbdən bir-birinin ardınca müxtəlif təxribatlar baş verir. Bunun ardınca daha hansı təxribatların baş verəcəyini söyləmək bir qədər çətindir. Uzaq Şərqdən hərbi orkestr gətirib Qarabağ ermənilərinə konsert verirlər və s. Bunların hamısı Azərbaycanı qıcıqlandırmağa yönəlib və yeni təxribatlara zəmin yaratmaq məqsədi güdür.

Rusiya Qarabağda -Azərbaycan torpağında çox həssas bir nöqtədən yapışıb. Bu da erməni əhalinin guya müdafiəsi məsələsidir. İstisna etmirəm ki, Rusiyanın növbəti təxribatlarından biri Qarabağdakı dinc erməni əhalini hədəf alacaq. Bununla da Moskva bütün dünyaya göstərməyə çalışacaq ki, erməni əhalinin həyatı təhlükə altındadır və zənnimcə, bunu göstərə biləcək də. Çünki bunu qəbul etmək istəyənlər yetərincədir, hətta Rusiyaya düşmən düşərgədə də...

Bununla Kreml Qarabağa - Azərbaycan ərazisinə əlavə hərbi qüvvə yeritməyə “əsas” qazanacaq. Nəticədə Gümrüdəki 102-ci bazadan Qarabağın dağlıq hissəsinə əlavə qüvvə yeridəcək Mən təxminən belə bir ssenari görürəm. Bütün baş verənlər də həmin bu ssenarinin həyata keçməsinə xidmət edən addımlardır...



Ərəstun Oruclu,
siyasi təhlükəsizlik məsələləri
üzrə ekspert

***- Rusiyanın hayklarla danışıqlar üçün məhz Azərbaycan xalqının ən yaralı yeri olan, 31 il öncə elə bu ölkənin 366-cı alayının iştirakıyla soyqırımı təşkil etdikləri və hazırda da faktiki işğal altında qalan Xocalı şəhərini seçməsi təsadüf idimi? Həmin görüş, məsələn, Rusiya hərbçilərinin digər dislokasiya məkanlarından birində də təşkil edilə bilməzdimi?***

- Əlbəttə, ermənilərlə görüş üçün Xocalının seçilməsi heç də təsadüf deyildi. Formal baxımdan Rusiya hərbi kontingentinin komandanlığı bunu belə əsaslandıra bilər ki, onların qərargahı orada yerləşir. Ümumiyyətlə, Rusiyanın “sülhməramlı” adlanan hərbçilərinin qərargahının məhz Xocalıda yerləşdirilməsi bizim heysiyyatımızı aşağılamaqdır. Eyni zamanda bəhs edilən görüş zamanı ermənilərin “Artsax respublikası”nın nümayəndələri kimi təqdim edilməsi, görüş keçirilən otağın Rusiya imperatorlarının portretləri ilə bəzədilməsi - bunların heç biri təsadüf deyil. Hamısı məqsədli şəkildə seçilib. Və dediyim kimi, bütün bunlar Azərbaycanı daha çox qıcıqlandırmağa, onu aşağılamağa və rəsmi Bakının Rusiyanın şərtlərini qəbul etməyə vadar olunmasına hesablanıb. Moskvanın istədiyi əsas şərtlərdən biri isə Azərbaycan torpağına əlavə qoşun yeritməkdir. Digər tərəfdən isə Rusiyanın daha böyük məqsədi Azərbaycan vasitəsilə Yaxın Şərqə çıxmaqdır. Yəni əlavə qoşunların yeridilməsi də məhz bu məqsədə xidmət edir. Getdikcə geosiyasi vəziyyət Rusiyanın ziyanına dəyişir. O cümlədən Yaxın Şərqin özündə... İran-Səudiyyə Ərəbistanı danışıqları, diplomatik münasibətlərin bərpası haqqında anlaşmanın əldə olunması, bunun Çin vasitəsilə baş tutması Moskvada ciddi narahatlıq doğurur. Rusiya artıq Yaxın Şərqdə yalnız Qərbi deyil, Çini də qarşısında görür. Belə bir şəraitdə onun uduzması ehtimalı maksimuma çatır. Odur ki, Kreml tələsir və çalışır ki, bütün lazımi prosesləri həyata keçirib Azərbaycan vasitəsilə Yaxın Şərqə dəhlizin açılmasına nail olsun. Rusiya regiona hərbi qüvvələrini ya Azərbaycanın işğaldan azad edilmiş ərazilərində tikilmiş hava limanları vasitəsilə atmağı planlaşdırır - bunun üçün Moskva Bakını həmin hava limanlarını icarəyə verməyə məcbur etməlidir- və yaxud eyni işi İranla anlaşaraq birbaşa İran ərazisindən keçməklə görmək istəyir. Hərçənd sonuncu variant o dərəcədə inandırıcı görünmür. Əvvəl söylədiyim kimi, İran-Səudiyyə anlaşması və həmin anlaşmanın təminatçısı kimi Çinin çıxış etməsi fonunda İranın mövqeyi daha da güclənir və manevr imkanları da genişlənir...

> *İstisna etmirəm ki, Rusiyanın növbəti təxribatlarından biri Qarabağdakı dinc erməni əhalini hədəf alacaq*

> *Moskvanın ermənilərlə görüş üçün Xocalını seçməsi heç də təsadüf deyildi...*

> *Nə qədər ki, Rusiya fiziki olaraq bizim ərazimizdədir, o, heç bir anlaşmaya, heç bir sülh prosesinə imkan verməyəcək, bunun qarşısını alacaq*

***- Həmin hadisədən sonra Xankəndidəki erməni “müxalifət”inin Xocalıya - “sülhməramlı”ların dislokasiya yerinə yürüş etməsi və onların qərargahı qarşısında “öz vəzifələrinizi düzgün yerinə yetirin” kimi şüarlarla çıxış etməsi də, yəqin ki, Rusiya hərbi kontingentinin Azərbaycan torpağındakı yerinin “bərkidilməsi”nə xidmət edirdi. Yəni Moskvanın “Biz olmasaq, yenə kütləvi qırğınlar olar” məntiqi ilə...***

- Şübhəsiz, hadisənin ardınca erməni “müxalifətçi”lərinin yürüşü planın bir tərkib hissəsi idi. Guya artıq Qarabağdakı erməni əhali Rusiya “sülhməramlı”larının daha qətiyyətli hərəkət etməsi və təhlükəsizliyi təmin etməsini tələb edir. Bu da həmin planın həyata keçirilməsi üçün atılmış çox uyğun bir addımdır. Yəni guya Qarabağdakı “erməni xalqı” tələb edir ki, Rusiya onun təhlükəsizliyini təmin etsin, amma bunun üçün bizim gücümüz yetərli deyil, Azərbaycan aqressiv siyasət yeridir və s. Moskva bu kimi tezisləri irəli sürərək Qarabağa əlavə qoşun yeritməyi və bununla regionda öz mövqelərini möhkəmləndirməyə çalışır. Mənim buna zərrə qədər şübhəm yoxdur...

***- Necə düşünürsünüz, Azərbaycan dövlətinin Qarabağ üzərində yurisdiksiyasının əldə olunması və Ermənistanla sülh bağlanması məsələsi heç olmasa, 1-2 ildə həll oluna bilər, yoxsa 30 il Minsk Qrupunun havasına oynadığımız kimi, bu dəfə də illərlə Moskva, Soçi, Brüssel görüşləri və Qarabağ erməniləri ilə danışıqlar cəhdləri ilə vaxtımızı öldürəcəyik?***

- Xeyr, istər Azərbaycan-Ermənistan danışıqları, istərsə də Qarabağdakı ermənilərlə görüşlərin yaxın 5 ildə və ya ən azı yaxın 2-3 ildə real nəticə verəcəyini gözləmirəm. Nə qədər ki, Rusiya fiziki olaraq bizim ərazimizdədir, o, heç bir anlaşmaya, heç bir sülh prosesinə imkan verməyəcək, bunun qarşısını alacaq. O cümlədən də Qərbi, Avropanı, beynəlxalq qurumları maksimal dərəcədə bu danışıqlarda vasitəçilikdən, moderatorluqdan çəkindirəcək. Rusiyanın etməyə çalışdığı məhz budur. Hələlik Moskva bir məsələdə uduzub. Avropa Birliyinin Ermənistan-Azərbaycan sərhədinə gəlməsi məsələsində... Biz gördük ki, Rusiya bir tərəfdən də burada həmin prosesin yarımçıq implementasiyasına nail olub.

✍ *Sultan Laçın*

## Problem



***Son zamanlar Bakı və ətraf ərazilərdə suyun fasilələrlə verilməsi müşahidə olunur. Belə ki, “Azərsu” ASC bəzi ərazilərə suyun verilməsini qrafik əsasında aparır. Səbəbsə Bakı və Sumqayıtın suya olan ehtiyacını ödəyən Ceyranbatan su anbarında suyun kəskin azalmasıdır. Bunun da səbəbi anbara ötürülən suyun həcmi ilə bağlıdır.***

# Susuz qalacağıq?!

Yeri gəlmişkən, son günlər Kür çayında da suyun həcmi kəskin şəkildə azalıb. Hətta çayın keçdiyi bəzi ərazilərdə bunu açıq-aşkar görmək mümkündür. Müşahidələrə görə, təkcə son 10 gündə çayda suyun səviyyəsi təxminən 50 santimetr aşağı düşüb. Bəs, görəsən, hazırda ölkənin su ehtiyatlarında vəziyyət necədir? Doğrudanmı, bizi su qıtlığı gözləyir?

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Vüqar Kərimov ”Ölkədə su qıtlığının səbəbləri və mövcud vəziyyət” mövzusunda təşkil olunan brifinqdə Azərbaycanın su ehtiyatlarının 15-20 faiz azalacağını bəyan edib: ”Azərbaycanın su ehtiyatlarının 70 faizi ölkə xaricində formalaşır. Bu baxımdan Azərbaycan dünyada su stresi yaşayan ölkələrdəndir. Adambaşına düşən su ehtiyatlarına görə ölkəmiz 90-cı yerdədir. Cəmi su ehtiyatları üzrə hətta 140-cı yerdəyik. Proqnozlar çox təəssüf ki, o qədər sakitləşdirici deyil. Son 30 ildə Azərbaycanın su ehtiyatı 20 faizə qədər azalıb. 2050-ci ilə qədər də 15-20 faizə qədər azalacağı ehtimal edilir. Bu, bizə sudan məsuliyyətlə istifadə etməli olduğumuzu göstərir”.

> *Azərbaycanda müasir texnologiya ilə təchiz olunan suvarma sistemləri olduqca azdır*

O həmçinin vurğulayıb ki, Mingəçevir su anbarına daxil olan suyun həcmi son 4 ildə 50 faizə qədər azalıb: “2018-ci ildə 823 milyon kub su daxil olurdusa, 2022-ci ildə bu rəqəm 455 milyona düşüb. Bunun səbəbi yağıntıların miqdarının az olması və transsərhəd çaylarla ötürülən suyun miqdarının aşağı düşməsidir. Əvvəlki illərlə müqayisədə anbarımıza daha artıq su toplaya bilmişik ki, yay aylarında sərf edə bilək”.

Onun sözlərinə görə, dövlət başçısının tapşırığı əsasında 20 magistral kanalın və supaylayıcı şəbəkənin bərpası nəzərdə tutulub: “Burada 9 min kilometr uzunluğunda şəbəkə və kanaldan söhbət gedir. Artıq işlərə başlanılıb. Oktyabrda bərpa prosesinin ilkin mərhələsinin yekunlaşması nəzərdə tutulur. Bunun nəticəsində su itkisinin 30 faiz azalması gözlənilir. Digər tərəfdən, əkin sahələrinin 60 faizdən yuxarısı suvarılan sahələrdir. Su itkilərinin çoxu burada formalaşır”.

Nazir müavini açıqlamasında Kür çayının mövcud durumuna da aydınlıq gətirib və deyib ki, vəziyyət elə də qorxulu deyil, lakin narahat olmağa əsaslar var: “Son illərdə Gürcüstandan daxil olan suyun həcmi 5-6 milyard kubmetr həcmindədir: “Bir məsələni qeyd edim ki, İsrailin ərazisi Azərbaycan boydadır. Onlarda su ehtiyatı 2 milyard kubmetrdirsə, bizim 25 milyard kubmetr su həcmimiz var. Buna baxmayaraq, İsrail dünyaya ən çox kənd təsərrüfatı məhsulu ixrac edən ölkələr siyahısındadır. Biz də sudan qənaətlə istifadə etməliyik”.

Xatırladaq ki, rəsmi məlumatlara görə, ölkənin 25 milyard kub su ehtiyatı var. Bunun 16,5 milyard kubu yeraltı, 8,5 milyard kubu isə yerüstü sulardır.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Coğrafiya İnstitutunun Ekocoğrafiya şöbəsinin müdiri, ekoloq Ənvər Əliyev deyib ki, su qıtlığı ölkəmizə yağıntıların az düşməsindən qaynaqlanır:**

“Çaylar yağıntıdan və yeraltı sulardan qidalanır. Çoxillik iqlim göstəricilərinə əsasən qış ayları yağıntıların az olduğu dövrdür. Düşən də qar şəklində düşür. Onun da əriməsi zaman istəyir. Yağıntıların böyük qismi yazın sonu, yayın əvvəlində olacaq. Amma ona kimi dözmək mümkün deyil. Taxıl sahələri və digər yazlıq əkinlər suvarma suyu istəyir. Çox təəssüf ki, bütün su mənbələrində su azalıb. O cümlədən də Ceyranbatan su anbarında yığılan suyun səviyyəsi çox düşüb. Təbii ki, suyun azalması həm də ekoloji fəlakət yaradır. Çünki Ceyranbatan su anbarında canlılar var ki, onlar suyu təmizləyir, suya öz qatqılarını verirlər. Suyun səviyyəsi düşdüyündən həmin canlıların da məhvolma təhlükəsi artır”. Mütəxəssis onu da qeyd edib ki, Taxtakörpü su anbarında da suyun səviyyəsi əvvəlki illərlə müqayisədə xeyli düşüb:

“Hələ Samur çayından danışmıram. SSRİ dövründə Samurun su ehtiyatının 75 faizini biz istifadə edirdik. Amma indi bu rəqəm 50 faizə düşüb. Bu da əlavə çətinlik yaradır. Əgər quraqlıq daha bir ay davam etsə, ölkə çox ciddi problemlə üz-üzə qalacaq. Amma aprelin ikinci yarısından qarın əriməsi ilə bağlı müəyyən ehtiyat olacaq. O vaxtadək dözmək lazımdır”.

Ekspert Kür çayının quruma səbəblərindən də danışaraq qeyd edib ki, buna əsas səbəblərdən biri su anbarlarıdır: “Ölkəmizdəki çayların böyük əksəriyyəti tranzit çaylardır. Kür çayı bizim əsas su mənbəyimizdir. Kürün bir çox qolları Türkiyə, Ermənistan və Gürcüstandan qidalanır. Bu qidalanmada da bəzi hissələrdə su anbarları var. Bu çay ümumilikdə respublikamız daxil olmaqla 1515 kilometr ərazini keçir. Həmin ərazilər də maksimum dərəcədə gələcək üçün bu çaydan istifadə etməyə çalışır. Bu problem ucbatından da Kür çayı Azərbaycan ərazisinə çatanadək suyu azalır. Ölkəmizdə ümumi su həcmi 21,9 milyard kubmetr olmaqla irili-xırdalı 140 su anbarı mövcuddur. Onlardan ən böyüyü 16 milyardkubmetr su həcmi olan Mingəçevir su anbarıdır. Bu anbarlar suyu gələcəkdə daha “səmərəli” istifadə üçün yığmağa çalışır. Nəticədə çaya bir hücum başlayır. Kürün quruması təhlükəsi həm də Araza aiddir. Çayın qurumasının qarşısının alınması üçün başlıca olaraq suvarma sisteminə diqqət edilməlidir. Ən çox suvarılan ərazi taxıl sahələridir. Təəssüf ki, Azərbaycanda müasir texnologiya ilə təchiz olunan suvarma sistemləri olduqca azdır. Kürün şəklinə baxanda utanırıq. Bu çay Zaqafqaziyanın ən böyük çaylarından biridir. Kür daima bizi daşqınları ilə qorxudub. Amma indi Kür-Araz ovalığını çökintülərlə təmin edən çay qurumaqdadır.

Suvarma sistemlərinin artırılması vacibdir. Suyun hər qramını diqqətlə istifadə etməliyik. Günəş parıltısının illik miqdarı 2500-2800 saatdır. Hər kvadratsantimetrə düşən günəş radiasiyasının illik miqdarı 130-145 kkal/sm2 arasında dəyişir. Suvarma çox aparılan ərazilərdə günəş radiasiyası yüksəkdir.

> *Ölkəmizdə ümumi su həcmi 21,9 milyard kubmetr olmaqla irili-xırdalı 140 su anbarı mövcuddur*

Təklif edirəm ki, həmin ərazilərdən günəş enerjisinin toplanılması üçün istifadə edilsin. Bu enerjidən məişətdə, icimai yerlərdə istifadə edə bilərik. O ərazilərdə əhalinin 25-30 faizi yaşayır. Həmin əhaliyə həm istilik enerjisi verilsin, həm də anbarlara toplanan suyun bir qismi paylanılsın. Bəlkə, bu qaydada Kürün qurumasının qarşısı alınar”. Ekoloq Kür çayının qurumasının su qıtlığı yaratmaqla yanaşı, həm də torpaqları şoranlaşdırdığını qeyd edib:

“Təəssüf ki, həmin ərazilərdə nəhəng şoranlıq yaranıb. Kürün qurumasının səbəbləri ciddi araşdırılmalıdır. Kompleks iş ortaya qoyulduqdan sonra həll tapmaq olar. Ermənistan Gürcüstandan fərqli olaraq ölkələrarası su müqavilələrini imzalamır, bu da problem yaradır. Ermənistan çayı çirkləndirir, su israfına yol verir. Azərbaycana 8 hava kütləsi daxil olur, onlar bir-birindən olduqca fərqlidir. Suyun azalmasında insan faktoru əsas rol oynayır.

Müəyyən dövr quraqlıq keçəcək. 2050-ci ildən başlayaraq planetdə ənənəvi soyuqlaşma başlayacaq. Buzlaşma dövründən yarımbuzlaşma dövrünə keçid olacaq.

Bəlkə də, bu hazırlıq ona doğru gedir. Çünki belə hallarda adətən quraqlıq gəlir, daha sonra ardınca qəfil soyuqlar baş verir”.

✍ *Sevinc*

# Avropa Parlamentinin qətnamələri adi kağız parçasıdır

**Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli, qeyri-obyektiv qətnamə qəbulu sevdası tükənmir. Bu cür qətnamələrlə Ermənistanın 30 illik işğal dövrü ərzində Azərbaycanın maddi-mədəni irsinə qarşı törətdiyi vandalizm tamamilə inkar edilir, pərdələnir. Lakin tək BMT-nin qəbul etdiyi 4 qətnamədə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi əsas fakt olaraq ortaya qoyulduğu halda, Avropa Parlamenti niyə həqiqətləri görmür? Avropa Parlamentini usanmadan, utanmadan Azərbaycana qarşı qərəzli qətnamələr qəbul etməyə vadar edən nədir? Bu istiqamətdə "Həftə içi"nə Milli Məclisin deputatı Razi Nurullayev danışır...**

## Müsahib



**Razi Nurullayev,**
Milli Məclisin deputatı

***- Avropa Parlamentinin bizimlə dərdi nədir, niyə qərəzindən əl çəkmir, bununla nəyə nail olmağa çalışır?***

- Avropa institutlarının Azərbaycana qarşı belə qərəzli mövqe sərgiləməsi hiddət doğurur. Avropa institutları 30 il ərzində Azərbaycanda işğal siyasəti aparan Ermənistana qarşı bir dəfə də olsun bəyanat vermədilər. Avropanın insan hüquqlarının müdafiəçiləri kimi çıxış edən beynəlxalq qurumlar öz yurdunda təcavüzə məruz qoyulan, məcburən qaçqın, köçkün həyatı yaşayan 1 milyondan çox insanımızın iztirablarına səssiz qaldılar. İki ildir ki, Azərbaycan öz torpaqlarını işğaldan azad edib. Avropa institutlarının gözü qarşısında xarabalığa çevrilmiş ərazilərimiz var, Ermənistanın müharibə və insanlıq əleyhinə cinayətləri dəlil, sübutlarla meydandadır. Hansısa qurumlar yenə də təcavüzkarı müdafiə edir. Ermənistan şəhər və kəndləri dağıtmaqla yanaşı, Azərbaycan xalqının bu ərazilərdəki bütün mədəni irsini məhv edib. Məscidlər yerlə-yeksan edilib, inək və donuz saxlanılan yerlərə çevrilərək, təhqir olunub. Avropa Parlamenti bütün bu erməni cinayətlərini görməzdən gəlib Ermənistanın yanında dayanır. Deməli, belə bir qurumun qəbul etdiyi qətnamə bizim üçün də mənasız kağız parçasından başqa bir şey deyil. Bu kağız parçası bizim regionda apardığımız siyasətə, atdığımız addımlara, eləcə də hədəflərimizə qarşı təsir göstərmək gücündə deyil. Avropa Parlamenti Azərbaycan əleyhinə qətnamə qəbul edib, Ermənistanı dəstəkləməklə ikilisatandartlarını ortaya qoyur, dünyaya ədalətsizlik toxumu səpir. Bu toxumlar nəticəsində də yeni müharibə ocaqları yaranır. Müharibələr başlayan zaman isə bu təşkilatların qətnamələrini, bəyannamələrini heç kəs ciddiyə almır. Ona görə də Rusiya Ukrayna ilə müharibəsində Avropanın, Qərbin haqlı tələbini qəbul etmir. Çünki o qədər haqsızın yanında dayanıblar ki, artıq haqqı deyəndə sözlərini dinləyən olmur. Beynəlxalq təşkilatlar, institutlar özlərini bataqlığa salıb. Ona görə də Avropa Parlamentinin yenidən Azərbaycan əleyhinə qətnamə çıxarıb, Ermənistanın tərəfini saxlaması bu qurumun biabırçılığının son nöqtəsi olacaq.

***- Avropa Parlamenti işğal dövründə Azərbaycan ərazilərində dağıdılmış və ciddi ziyan vurulmuş 67 məscidi, yerlə-yeksan edilmiş İslam mədəniyyəti abidələrini inkar edib, ermənilərə aid abidələrin dağıdılması ilə bağlı narahatlığını önə çəkir. Bu düşüncə tərzi ilə dini, irqi ayrı-seçkiliyi təşviq edən Avropa hansı təhlükəli tendensiyalara rəvac verir?***

- YUNESKO-ya dəfələrlə edilən müraciətlərimizə baxmayaraq, bu günə qədər bu təşkilat Azərbaycanın işğaldan azad olunan ərazilərinə öz missiyasını göndərməyib. Onlar çox gözəl bilirlər ki, həmin ərazilərdə Azərbaycanın 67 məscidi dağıdılıb. Salamat qalan məscidlərin divarları arasında isə ermənilər donuz saxlayıblar. Bütün bunları görməzdən gələn həmin Avropa parlamentariləri, nədənsə xristianlığı ifadə edən abidələrə xüsusilə diqqət çəkirlər. Əlbəttə, bu da birmənalıdır ki, erməni işğalı, vandallığı nəticəsində baş verən hər bir dağıntı və cinayətlərdə məsuliyyəti birbaşa Ermənistan daşıyır. Bu gün həmin beynəlxalq qurumlar Azərbaycanda, sanki ermənilərin timsalında xristian irsinin müdafiəçiləri kimi çıxış etməklə ermənilərə şərik olurlar.

Bu gün Azərbaycan dünyaya tərəqqipərvər Amerikaya, özünü dünyanın demokratiya beşiyi adlandıran Avropa ölkələrinə tolerantlıq dərsi keçir. Azərbaycanda insanların dininə, irqinə, dilinə olan hörmət heç bir ölkədə yoxdur. Avropa siyasətçilərinin necə belə ədalətsiz yanaşma ortaya qoya bilməsini anlamaqda çox çətinlik çəkirəm. Ona görə də onların bu hərəkətləri onu deməyə əsas verir ki, bunlar xristian təəssübkeşliyi siyasəti aparırlar. Bu isə müasir dünyada qəbuledilməzdir.

Ermənistanın və erməni lobbisinin "konyak diplomatiyası"ndan gen-bol faydalanan Avropa Parlamentinin Azərbaycana "öyüd-nəsihət" verməyə mənəvi haqqı yoxdur. Müasir səlibçilərə çevrilən Avropa Parlamentinin bir sıra irqçi, islamafob, Azərbaycanofob, türkafob mövqeləri və ikili standartları ilə tanınan deputatları susdurulmalıdır. XXI əsrdə Avropanın mərkəzində deputatların Ermənistan-Azərbaycan münasibətlərinə sırf xristian həmrəyliyi prizmasından baxması onların Orta əsr səlib yürüşləri dövrünün təfəkkürünə qayıtdıqlarını sübut edir.

***- İndiki Ermənistan ərazisində yaşayan, təxminən, 300 mindən artıq azərbaycanlı öz yurdlarından zorla qovulduqdan sonra oradakı Azərbaycan, habelə müsəlman irsi tamamilə məhv edilib. Niyə beynəlxalq təşkilatlar bu faktları araşdırmaq üçün əraziyə gəlmir, səbəb nədir?***

- Görünən odur ki, Avropa Parlamentinin yanaşmasında ərazi bütövlüyü anlayışı, ancaq Ermənistan kontekstində keçərlidir. Azərbaycana gəldikdə isə ərazi bütövlüyü yada düşmür. O cümlədən, indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar da öz torpaqlarından zorla, deportasiya, soyqırımlara məruz qoyularaq qovulub. Onların sayı 250-mindən 350 minə qədər dəyişir. Yəqin ki, Ermənistan ərazisndə tarixi torpaqlarımızdan qovulan azərbaycanlıların sayı Qərbi Azərbaycan icması tərəfindən daha dəqiq müəyyənləşdiriləcək.

Faktlar, canlı şahidlər sübut edir ki, o torpaqlarda bizim tarixi, dini abidələrimiz, evlərimiz qalıb, dağıdılıb. Ermənistan ərazisində bizim məscidlərimiz, dini abidələrimiz olub. Çünki o torpaqlar Azərbaycan xalqınındır. İrəvan Azərbaycanın qədim tarixi şəhəridir. Bu gün də Azərbaycan şəhərinin qalıqlarını orada ağır texnikalarla məhv edirlər.

O yerlər heç vaxt Ermənistan ərazisi olmayıb, orada ermənilər yaşamayıb. Bütün tarixi Azərbaycan adlarının hamısı saxtalaşdırılıb, erməniləşdirilib. Bütün bu faktlar SSRİ-nin tarix kitablarında da var. Ermənilər hələ bu gün də Qərbi Azərbayacan ərazilərində olan Azərbaycan adlarını, toponimlərini dəyişirlər.

Azərbaycanın irsini mədəniyyətini həmin ərazilərdən silib atırlar. Beynəlxalq təşkilatlar buna susqun qalıb, etirazlarını bildirmirlər. Araşdırılması üçün bir müşahidə missiyası göndərmirlər. Elə hey tutuquşu kimi "xristian abidələri" deyib, özlərinin xristian təəssübkeşliklərini nümayiş etdirirlər. Bunları gizlətmək olmaz.

***- Ermənistan nadir monoetnik ölkələrdən biridir. Avropa Parlamenti isə bu irqçı, faşist ideyalarını dövlət səviyyəsində təşviq edən ölkəni müdafiə edir. Avropa Parlamenti Ermənistanın maraqlarını qorumaq xatirinə qəbul etdiyi sənədlərlə gələcək perspektivdə nəyə nail olmağa çalışır?***

- Bu gün Ermənistanda başqa xalqların yaşamasına şərait yaradılmayıb. Öz mədəniyyətini saxlamaq istəyən xalqlar oradan qovulub. Ermənistanın monoetnik ölkə olması Azərbaycana nümunə ola bilməz. Əksinə, bu gün də Azərbaycanda ermənilər yaşayır. Əgər biz Qarabağda və Azərbaycanın digər rayonlarında yaşayan erməniləri müdafiə edirikсə, deməli, biz dəyərlərimizə, mədəniyyətimizə hörmət edirik və tolerant bir ölkəyik. Ermənilər "Ermənistanda ancaq ermənilər yaşaya bilər" təfəkkürü ilə yaşayırlar. Onlar bunu monoetnik quruluş yaratmaqla sübut ediblər. Azərbaycan isə tam fərqli şəkildə, burada ermənilərin də hüquqlarını qoruyan, başqa xalqlarla birlikdə Azərbaycan Konstitusiyasını bölüşən təhlükəsiz yaşamalarını təmin edib onların reinteqrasiyasını sürətləndirən sənədlər qəbul etməklə özünün dəyərlərini qorumuş olur. Azərbaycan öz qanunlarına hörmət qoyur, digər xalqlara hörmətini izhar edir. Avropa Parlamenti isə bu məqamları gözardına alıb, bu cür ədalətsiz qərarlarla özünə qarşı etimadsızlıq, güvənsizlik hissi doğurur.



Ermənistanda antisemitizm ən təhlükəli həddə çatıb. Avropa Parlamenti məsələnin mahiyyətini araşdırmadan, reallıqdan uzaq, Ermənistanın maraqlarını qorumaq xatirinə qəbul etdiyi sənədlərlə özünü nufuzdan salıb, qeyri-ciddi rol oynayır. Avropa Parlamenti belə qızışdırıcı siyasəti ilə lüzumsuz yerə regionumuzu geosiyasi rəqabət məkanına çevirməyə çalışır. Avropa Parlamentində ənənəvi Qərb dəyərləri, habelə plüralizm, ifadə azadlığı kimi fundamental məsələlər Avropadakı erməni icmasının radikal fəaliyyəti nəticəsində məhv olmaq təhlükəsi ilə üzləşib. Hazırda Avropa Parlamenti erməni icmasının təsiri altında olan və Azərbaycana qarşı radikal mövqe tutan bir sıra deputatların öz şəxsi ambisiyalarının həyata keçirildiyi məkana çevrilib.

***- Ermənistanı açıq şəkildə dəstəkləyən və regionda rəsmi Yerevanın xeyrinə güc balansını dəyişməyə çalışan Avropa Parlamenti məlum qətnamə layihəsində Türkiyəni də regionda stabilliyi pozmaqda ittiham edir, rəsmi Ankaranı Azərbaycanı dəstəkləməyə son qoymağa çağırır. Türkiyə və Azərbaycan bu təzyiqlərə qarşı hansı əks təsir gücünə sahibdir və nə etməlidir?***

- Avropa Parlamenti hər zaman Türkiyəyə qarşı qərəzli mövqe sərgiləyib. Hər kəs yaxşı bilir ki, Türkiyə 44 günlük müharibə dövründə Azərbaycanı haqlı olduğuna görə müdafiə etdi. Bu gün də Azərbaycanı ona görə müdafiə edir ki, Azərbaycan haqlı tərəfdir. Azərbaycan işğala məruz qalıb, Azərbaycan başqa ölkənin torpaqlarına göz tikməyib, dağılan, böyük zərərlə üzləşən Azərbaycan əraziləridir. Separatizmə bu gün Ermənistanın müdafiə edən Avropa Birliyi məruz qalmayıb. Ermənistan təcavüzkardır. Avropa Parlamenti Azərbaycana qarşı haqsızdır. Ona görə də onların qəbul edəcəyi qətnamələrin zərrə qədər də həqiqət payı, ədalət hissi yoxur. Sadəcə onlar güclü Türkiyəni görmək istəmrlər, güclü müsəlman ölkəsi görmək istəmir.

***- Avropa İttifaqı missiyasını öz ərazisinə buraxmaq üçün Azərbaycana çağırış edən Avropa Parlamenti hansı strateji xətti yürüdür?***

- Çox təəssüf edirəm ki, Avropa Parlamenti öz missiyasının Azərbaycan ərazisinə buraxılmasını təkid edir. Biz qətiyyətlə rədd edirik və bu, Azərbaycana qarşı təhqir olar. Azərbaycan Avropa missiyasını nəyə görə öz ərazisinə buraxmalıdır? Hansı haqla bu tələbi irəli sürürlər? Azərbaycan suveren, müstəqil dövlətdir və başqa ölkələrin missiyasının Azərbaycanda nə işi var. Biz sərhədlərinizi qoruya bilirik. Azərbaycanda yaşayan xalqların müqaddəratını, haqlarını qoruya bilirik. Başqa ölkələrin bu sahədə verə biləcəyi məsləhətinə, nə də köməyinə ehtiyacımız yoxdur. Ona görə də onların bu tələbini rədd edirik.

> *Azərbaycanda insanların dininə, irqinə, dilinə olan hörmət heç bir ölkədə yoxdur*

> *Ermənistanın və erməni lobbisinin "konyak diplomatiyası"ndan gen-bol faydalanan Avropa Parlamentinin Azərbaycana "öyüd-nəsihət" verməyə mənəvi haqqı yoxdur*

> *Avropa Parlamentində ənənəvi Qərb dəyərləri, habelə plüralizm, ifadə azadlığı kimi fundamental məsələlər Avropadakı erməni icmasının radikal fəaliyyəti nəticəsində məhv olmaq təhlükəsi ilə üzləşib*

***- Azərbaycanı işğalçı, təcavüzkar, cinayətkar dövlət qarşısında məğlub duruma salmağa çalışan Avropa Parlamentinə qarşı hansı qərarımız olmalıdır?***

- Cinayətləri məhkəmə istintaqı ilə sübut olunmuş Azərbaycanda saxlanılan ermənilərin məsələsini hər fürsətdə qabardan Avropa Parlamenti bu vaxta kimi bir dəfə də olsun 4000-ə yaxın itkin düşmüş azərbaycanlının sonrakı taleyinə dair Ermənistanı sorğulamayıb. Avropa Parlamentinin Azərbaycana münasibəti Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması istiqamətində nümayiş etdirdiyi səylərə və normallaşma prosesinə ziddir. Regionda Ermənistan tərəfindən yenidən genişmiqyaslı təxribatlar törədiləcəyi təqdirdə, bunun əsas günahkarlarından biri də məhz Ermənistanda revanşist qüvvələri təşviq edən Avropa Parlamenti olacaq.

Bir sözlə, biz sadəcə Avropa Parlamentinin qəbul etdiyi ədalətsiz sənədləri kağız parçası hesab edərək, bir kənara atacağıq. Qoy Avropa Parlamenti bilsin ki, onların qəbul etdiyi qətnamələr bizim üçün heç bir əhəmiyyət kəsb etmir. Bu gün Azvropanın keçmişinə baxsaq görərik ki, onlar o qədər qaniçən hərəkətlərə yol veriblər ki, bu gün insanlıq bunlardan utanır. Qoy onlar törətdikləri pisliklərə görə, müstəmləkəçiliyə görə Afrika ölkələrindən, kaloniya etdikləri xalqardan, korsikalılardan üzr istəsinlər. Bu gün Azərbaycan Avropa Parlamentinin haqsız, ədalətsiz yanaşmalarına qarşı, onların sümürgəçi, imperialist məfkurələrini, davranışlarını xatırlatmaqla cavab verə bilər.

✍ *Tahirə Qafarlı*



**■ Novruz bayramı ilə əlaqədar orta məktəblərdə tətil günlərinin sayı açıqlanıb. Bu barədə Elm və Təhsil Nazirliyindən (ETN) məlumat verilib.**

Bildirilib ki, Nazirlər Kabinetinin "2023-cü il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" müvafiq qərarına əsasən, tətil günləri aşağıdakı kimi müəyyən edilib:

- beşgünlük iş həftəsi ilə fəaliyyət göstərən təhsil müəssisələrində bu həftə son iş günü 17 mart, bayramdan sonra ilk iş günü 27 mart;

- altıgünlük iş həftəsi ilə fəaliyyət göstərən təhsil müəssisələrində bu həftə son iş günü 18 mart, bayramdan sonra ilk iş günü 25 mart tarixləridir.



**■ Hündürlüyü ən çoxu 5 metr, sahəsi 100 kvadratmetr olan bir mərtəbəli yardımçı tikililər tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinin siyahısından çıxarılıb.**

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında müzakirəyə çıxarılan Şəhərsalma və Tikinti Məcəlləsinə təklif olunan dəyişiklikdə əksini tapıb.

Başqa sözlə, hazırda hündürlüyü ən çoxu 5 metr, sahəsi 100 kvadratmetr olan bir mərtəbəli yardımçı tikililərin, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq fəaliyyəti ilə bağlı obyektlərin tikintisinə icazə tələb olunmur.



**■ Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla mühəndis-kommunikasiya təminatı sistemlərinə qoşulmaya görə cinayət məsuliyyəti müəyyənləşir.**

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında müzakirəyə çıxarılan Cinayət Məcəlləsinə təklif olunan dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan tikilməkdə olan və ya tikilmiş tikinti obyektlərinin təbii qaz, su, kanalizasiya, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin vəzifəli şəxsləri tərəfindən mühəndis-kommunikasiya təminatı sistemlərinə qanunsuz qoşulması iki min manatdan dörd min manatadək miqdarda cərimə ilə cəzalandırılacaq.



**■ Hazırki geosiyasi şəraitdə Orta dəhlizin imkanlarından maksimal şəkildə istifadə etmək lazımdır. Bunu rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Transxəzər Beynəlxalq "Şərq-Qərb" Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi (Data pipeline) üzrə çoxtərəfli görüşdə bildirib.**

Onun sözlərinə görə, Azərbaycanda nəqliyyatda yüklərin daşınması istiqamətində müxtəlif işlər görülüb. Belə ki, yük təyyarələri, gəmi potensialının artırılması sahəsində böyük işlər görülüb. Bakı-Tbilisi-Qars dəmir yolu xətti tikilib və istifadəyə verilib, bu xəttin nəqletmə gücünün artırılması istiqamətində də işlər aparılır.



**■ Dünyada hər hansı suyun insan orqanizminə müalicəvi təsiri ilə bağlı heç bir elmi göstərici yoxdur. Bunu Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli "İstehlakçı hüquqlarının qorunmasında dövlət orqanlarının rolu" mövzusunda keçirilən konfransda çıxışı zamanı bildirib.**

Onun sözlərinə görə, bu, keçmiş Sovetdən qalma göstəricidir ki, onlar müxtəlif mineral suların üzərində həmin suyun müalicəvi effekti olması ilə bağlı məlumat verib. "Qida Təhlükəsizliyi ilə bağlı qanunun tətbiqi ilə bu ildən etibarən Azərbaycana idxal olunacaq və Azərbaycanda istehsal olunacaq mineral suların üzərində onların müalicəvi effekti olması ilə bağlı göstəricilərin və digər önə çəkilə biləcək, amma əslində isə bir suyun tərkibində mineral göstərici kimi normalda olacağını özündə ehtiva edən göstəricilərin həmin etiket göstəricilərində istehlakçının çaşdırılması və aldadılması faktlarına icazə verilməyəcək", - deyə Qoşqar Təhməzli vurğulayıb.



**■ Avropa İttifaqı (Aİ) Ukraynana hərbi yardım çərçivəsində 2 milyard avro dəyərində mərmi tədarükü ilə bağlı müqaviləni yekunlaşdırıb. Bu barədə "Politico" nəşri əldə etdiyi sənədlərə istinadən bildirib.**

Nəşrin məlumatına görə, Ukraynaya mərmi göndərilməsi və yenilərinin alınması üçün Aİ ölkələri hər əməliyyata görə (həm mərmi göndərilməsinə, həmçinin yeni sursatların əldə olunması üçün) 1 milyard avro məbləğində maliyyə dəstəyi alacaqlar. Gözlənilir ki, birgə səylərlə Aİ ölkələri daha böyük müqavilələr bağlayaraq daha ucuz qiymətə sursat ala biləcəklər.

Qeyd olunub ki, Aİ indiyə qədər Ukraynaya 350 minə yaxın 155 mm-lik mərmi tədarük edib.

# Abituriyentlər imtahan suallarından narazıdır

***Dövlət İmtahan Mərkəzinin martın 5-də və 12-də keçirdiyi buraxılış imtahanları abituriyentlər arasından kütləvi narazılığa səbəb olub. Abituriyentlərin əsas narazılığı imtahan suallarının qəliz olması ilə bağlıdır. Ehtimal olunur ki, buraxılışla yanaşı, builki qəbul imtahanları da asan olmayacaq. Bunun nə dərəcədə real olacağı hələlik bilinməsə də, həm abituriyentlər, həm də onların valideynləri indidən narahat olmağa başlayıblar. Bəs, görəsən, indiyədək keçirilən buraxılış imtahanlarında suallar həqiqətənmi çətin olub? Bu hal qəbul imtahanlarının statistik nəticəsinə necə təsir göstərəcək?***



## Təhsil

■ **Məsələ ilə bağlı qəzetimizə açıqlama verən təhsil eksperti Kamran Əsədov deyir ki, Dövlət İmtahan Mərkəzi (DİM) həmişə biliyin qiymətləndirmə prinsipini əsas götürüb:**

”DİM qəbul və buraxılış imtahanlarındakı sualları orta məktəblərin tədris proqramına uyğun olaraq hazırlayır. Amma biz birmənalı şəkildə sualların kifayət qədər asan olduğunu deyə bilmərik. Rəqəmlərə baxsaq görərik ki, ali məktəblərə qəbul olmaq istəyən abituriyentlərin nəticələri kifayət qədər aşağı olub. Hətta orta və yaxşı hazırlıqlı abituriyentlər belə bütün sualları cavablandırmaqda əziyyət çəkiblər. Xüsusilə Riyaziyyat fənnində və Azərbaycan dilində mətn tipli suallar çətinlik yaradıb. Bu, onu göstərir ki, imtahanda istifadə edilən sualların ağırlıq səviyyəsi kifayət qədər yüksək olub. Biz başa düşməliyik ki, 5 və 12 mart tarixlərində imtahanda iştirak edən şagirdlər pandemiya dövründə buraxılış imtahanı vermiş şəxslərdir.

> *Xüsusilə Azərbaycan dili fənnindən təqdim edilən mətn tipli və riyaziyyatdan verilən açıq, situasiya tipli sullar şagirdləri daha çox vaxt itkisinə gətirib çıxarır*

Onların imtahan sualları kifayət qədər çətin olmalı deyildi. Bu baxımdan şagirdlər haqlı olaraq etiraz səslərini qaldırıblar. Hətta martın 12-də DİM tərəfindən keçirilən buraxılış imtahanları ilə martın 5-də keçirilən imtahanların sualları arasında böyük fərq müşahidə olunub. Demək olar ki, suallar çox çətin idi. Yadımda qalan sualları təhlil edəndə görürük ki, 2 saat ərzində bu tipli suallara cavab vermək mümkün deyil. Xüsusilə Azərbaycan dili fənnindən təqdim edilən mətn tipli və riyaziyyatdan verilən açıq, situasiya tipli sullar şagirdləri daha çox vaxt itkisinə gətirib çıxarır. Buna görə də şagirdlər haqlı etirazlarını bildirməyə başlayıblar. Keçirilən imtahanlar şagirdlərin gələcəkdə ali məktəbə qəbul olunması ilə bağlı böyük əhəmiyyət kəsb edir. Burada toplanan ballar blok imtahanında toplanan balların üzərinə gələcək. Bu da ciddi faktordur.

Əslində, DİM şagirdlərin pandemiyadan çıxdığını nəzərə almalı idi. Çünki şagirdlərin hamısı eyni bilik və bacarıqlara malik deyil. Şagirdlərin və valideynlərin digər haqlı etirazları ondan ibarətdir ki, DİM orta məktəbi bitirən bütün şagirdlərin hər birini eyni səviyyədə imtahan edir.

Biz bilirik ki, bu gün şagirdlər orta məktəblərdə bilik əldə etmirlər. Onlar ali məktəblərə girmək üçün əlavə müəllim və hazırlıq kurslarına gedirlər. Bu gün əldə olunan nəticələr həmin əlavə təhsilin hesabına baş verir. Biz 1, 2, 3, 4-cü qrup abituriyentindən Azərbaycan - dili və xarici dilləri soruşuruq. Amma 3-cü qrupla 1-ci qrupun abituriyentindən eyni səviyyədə Azərbaycan - dilini soruşa bilməzsiniz. 4-cü qrupa getmək istəyənlər abituriyentdən ciddi şəkildə ingilis - dilini, Azərbaycan - dili, riyaziyyat soruşuruq. Bu düzgün deyil”.

Ekspertin fikrincə, yaranmış vəziyyətlə bağlı şagirdlərə güzəşt olunmalıdır: “Hesab edirəm ki, şagirdlərə müəyyən qədər güzəştlər etməliyik. Doğrudur, ali məktəblərə qəbul plan yerləri ciddi şəkildə artıb və hətta gözləyirik ki, bu il müsabiqə şərtləri aşağı da düşə bilər. Çünki 60 minə yaxın plan yerinin doldurulması bu imtahan qaydaları ilə mümkün deyil və biz ümumiyyətlə, mövcud vəziyyəti nəzərə alaraq şagirdlərə güzəştə getməliyik”.



K.Əsədov bununla yanaşı qeyd edir ki, buraxılış imtahanları ilə müqayisədə blok imtahanlarının çətin olmayacağını proqnozlaşdırırlar: ”Təbii ki, qəbul imtahanlarının bu qədər çətin olacağını düşünmürəm. Ona görə ki, qəbul imtahanları ilə bağlı vəziyyət tamamilə fərqlidir. Çünki bu il ali təhsil müəssisələrinin qəbul yeri 50 mindən 60 minə qədər artırılacaq. Nəzərə alaq ki, keçən il plan yeri 50 min ətrafında idi və yanlız 46 min yer dolmuşdu.

Ümumiyyətlə, keçid balını toplayan, müsabiqə şərtini ödəyənlərin sayı kifayət qədər az idi. Yəni bu amillərin hər biri imtahanlarda asan və orta tipli sualların çox olmasını qaçılmaz edir. Plan yerləri artırılıb və ali təhsil müəssisələri maliyyə imkanlarını, özlərinin fəaliyyətini qəbul proqramının üzərində müəyyənləşdirib. Hesab edirəm ki, biz ali təhsil müəssisələrinin qəbul plan yerindən danışanda mütləq şəkildə bəzi nüansları nəzərə almalıyıq. Qəbul imtahanları nə qədər çətin olarsa, plan yerləri boş qalacaq. Mən hesab edirəm ki, burada ikinci vacib məqam növbəti imtahanların ağırlıq səviyyəsini aşağı salmaqla bağlıdır. Mən düşünmürəm ki, imtahanlar növbəti mərhələdə çətin olacaq. Fikrimcə, sadə sualların faizinin çoxalması ehtimalı yüksəkdir”.

■ **Məsələyə münasibət bildirən təhsil eksperti Elçin Əfəndi isə vurğulayır ki, imtahan suallarının çətin olması nəticələrə təsir göstərəcək:** ”Ümumiyyətlə, imtahanın çətinliyi əsasən Riyaziyyat fənnində, eyni zamanda Azərbaycan dilindən mətn tipli sualların həcminin böyük olması ilə bağlı idi. Məhz bu sualların bir qədər çətin olması abituriyentlər və onların valideynləri tərəfindən bildirildi. Biz də ümumi araşdırma apardıq və nəticə etibarilə onların haqlı olduğunun gördük. Düşünürəm ki, mətn elə seçilməlidir ki, abituriyentin vaxtına daha çox müdaxilə etməsin. Abituriyent normal şəkildə vaxtdan istifadə edə bilsin. Mətnlərin həcmi kiçik olmalı idi ki, abituriyentlər 3 saatlıq imtahan müddətində çox vaxt itirməsin.

> *Dövlət İmtahan Mərkəzi bunu nəzərə alıb, blok imtahanında sualları abituriyentlərin bilik səviyyəsinə uyğun tərtib etməlidir*

Riyaziyyat suallarında da, sualın cavabının yazılması çox çətin mərhələdən ibarət olmamalı idi. Buraxılış imtahanı strateji imtahandır. Buraxılış imtahanında əldə olunan nəticə əsasında abituriyentlər ali təhsil müəssisələrinin 1, 2 ,3 və 4-cü qrupu üzrə 300 bal toplayırlar. Eyni zamanda bu imtahan nəticəsi əsasında 5-ci ixtisas qrupu üzrə müvafiq olaraq qabiliyyət tələb edən ixtisasların müsabiqəsində iştirak edə bilirlər. Bundan əlavə, abituriyentlər 11 illik təhsil bazasından kolleclərə məhz bu imtahan əsasında qəbul olunurlar. Düşünürəm ki, qarşıdakı imtahanlar da eyni səviyyədə keçirilsə, maksimal nəticəni 1, yaxud 2 nəfərin toplamaq ehtimalı olacaq”.

E.Əfəndi də buraxılış imtahanından fərqli olaraq, blok imtahanlarının o qədər də çətin olmayacağını qənaətindədir: ”Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi buraxılış imtahanları tam başa çatdıqdan sonra statistik olaraq təhlil aparılacaq və onun əsasında imtahan suallarına baxılacaq. Blok imtahanına salınan sualların daha çətin olacağını düşünmürəm. Sadəcə blok imtahanında problem ondan ibarətdir ki, 4 səhv 1 doğru cavabı aparır. Məhz bu nüans abituriyentlərin blok imtahanında daha aşağı nəticə əldə etmələrinə səbəb olur. Dövlət İmtahan Mərkəzi bunu nəzərə alıb, blok imtahanında sualları abituriyentlərin bilik səviyyəsinə uyğun tərtib etməlidir”.

✍ **Sevinc**

## Çağırış

***Azərbaycanda qadınların pensiya yaşının azaldılması yenidən gündəmdədir. İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) qadınların pensiya yaşının azaldılaraq 63 yaş həddində müəyyənləşdirilməsi ilə bağlı təkliflə çıxış edib.***



# Qadınların pensiya yaşı azaldılsın

Azərbaycanda qadınların pensiya yaşının azaldılması yenidən gündəmdədir. İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) qadınların pensiya yaşının azaldılaraq 63 yaş həddində müəyyənləşdirilməsi ilə bağlı təkliflə çıxış edib. Qeyd edib ki, Azərbaycan cəmiyyətində və ailəsində qadının rolu, onun üzərinə düşən məsuliyyət nəzərə alınaraq, işləyən qadınların pensiya yaşının getdikcə artırılaraq 2027-ci il 1 iyul tarixinədək 65 yaş həddinə çatdırılması məqbul deyil. Bu məsələyə millət vəkilləri, ekspertlər də loyal yanaşırlar.

■ **Vüqar Bayramov, millət vəkili:**

Pensiya yaşının dəyişdirilməsi pensiya islahatlarında müzakirə edilən məsələlərdəndir. Biz də Milli Məclisin komitə iclasında xanımlar üçün pensiya yaşının 65-dən 63-ə endirilməsini təklif etmişdik. Nəzərə almaq lazımdır ki, qadınlar sosial baxımdan dəstəyə ehtiyacı olan vətəndaşlarımızdır. Xüsusilə pensiya yaşında onların sosial təminatının gücləndirilməsi daha prioritetdir. Qadınlar və kişilər arasında pensiya yaşında fərqlər bir sıra ölkələrdə də var. Odur ki, Azərbaycanda da oxşar qaydanın tətbiqi mümkün ola bilər. Qadınların pensiya yaşının azaldılması təklifi ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də müraciət ünvanlanıb. Biz bu təklifi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də təqdim etmişik ki, belə olan halda maliyyə yükünün hesablanması həyata keçirilsin. Maliyyə yükünə uyğun olaraq bu istiqamətdə islahatlar davam etdirilməlidir. Düşünürəm ki, bu təklifin maliyyə əsaslandırılması hazırlandıqdan sonra konkret müzakirələrin davam etdirilməsi mümkündür.

> *Bu təklifin maliyyə əsaslandırılması hazırlandıqdan sonra konkret müzakirələrin davam etdirilməsi mümkündür*

> *Hər bir cəmiyyətdə pensiya yaşına daha tez zamanda çatmağı gözləyən insanlar var*

■ **Fuad İbrahimov, iqtisadçı ekspert:**

Hər bir cəmiyyətdə pensiya yaşına daha tez zamanda çatmağı gözləyən insanlar var. Həmin adamlar ömürlərinin müəyyən bir hissəsini pensiyalarından istifadə edərək, yaşamaq istəyirlər. Bu, aksiomdur. Mövcud təklif əlbəttə, reallaşa bilər. İrəli sürülən fikrin həyata keçirilməsi hökumətin baxışları və imkanlarından asılıdır. Ölkəmizin iqtisadi potensialı bu təklifin reallaşmasına imkan verir: Buna ölkəmizin iqtisadi gücü də kifayət qədər çatır. Son dövrlərdə Azərbaycanın xarici borcu azalıb. Xarici dövlət borcu Ümumi Daxili Məhsulun (ÜDM) səviyyəsində kifayət qədər risksiz şəkildə aşağı düşüb.

Bütün bunlar hökumətin apardığı siyasət və maliyyə dayanıqlığı nəticəsində baş verib. Yəni iqtisadi cəhətdən heç bir problem yoxdur. Sadəcə baxışlar, həmçinin elmi-tədqiqat institutları, Milli Məclis və dövlət nəzarətini həyata keçirən qurumların bir araya gələrək, layihə ilə çıxış etməsi lazımdır. Məlumat üçün xatırladaq ki, “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanununa əsasən, 63 yaşına çatmış kişilərin və 60 yaşına çatmış qadınların fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ var. Hazırda bu qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır.

✍ **Sevinc**

# İslamafob Fransa

◂ əvvəli 1-ci səhifədə

Y.Luti əlavə edib: “Fransanı tərk edən yüksəkixtisaslı müsəlman gənclər məhz fransızların vergiləri hesabına təhsil alıb və bir mütəxəssis kimi yetişiblər. Lakin islamofobiyanın güclənməsi nəticəsində bu insan kapitalından Fransa deyil, başqa ölkələr faydalanır. Belə olan şəraitdə, fransız siyasətçilərdən soruşmaq lazımdır; sizin bu yanlış siyasətiniz ixtisaslı kadrların qlobal iqtisadiyyata töhfə verməsinə səbəb olduğu bir halda, Fransanı dünyanın və Avropanın “axsaq ördəyinə” çevirmirmi? Müsəlmanlara qarşı ayrı-seçkilik edərək, siz onları mühacirətə vadar edirsiniz. Lakin siyasətçilərin bu suallara cavab verəcəklərini güman etmirəm”. O diqqətə çatdırıb ki, Fransada yaşayan müsəlmanlar təhsil, məşğulluq, məskunlaşma və bəzən səhiyyədə də ayrı-seçkiliyə məruz qalırlar.

2015-ci ildən bəri Fransa hökuməti və parlamenti müsəlmanların hüquqlarını məhdudlaşdıran bir sıra qərarlar, xüsusən 2016-cı ildə qadınların iş yerlərinə hicabla gəlməsini qadağan edən qanun layihəsi qəbul ediblər. 2017-ci ildə isə Fransa Prezidenti Emmanuel Makron və onun mərkəzçi hökuməti imamların rəsmi qurumların tabeliyinə verilməsi barədə qanun layihəsini parlamentdən keçirə bilib. Fransız hökuməti, həmçinin məscidlərin bir hissəsini, müsəlman xeyriyyə cəmiyyətlərini bağlayıb. Yasir Luti bildirib ki, Fransada islamofobiya meyillərinin artması nifrət atmosferi və düşmənçilik yaradır, bu isə siyasətçilərin təqsiri üzündən baş verir. Fransada islamofobiya ifrat sağ təmayüllü siyasətçilər Marin Le Penin və Erik Zemmurun 2020-ci ildəki prezident seçkiləri kampaniyası zamanı daha da güclənib. Bu siyasətçilərin çıxışlarında İslam dininə qarşı fikirlər və müsəlmanların təhdid edilməsi ön planda olub. Fransada islamofobiyanın zərərli təzahürlərindən biri də məşğulluq siyasəti ilə bağlıdır. Bu ölkənin hökumətinin 2021-ci ildə dərc etdiyi hesabatda göstərilib ki, iş üçün müraciət edən müsəlmanların şansı 32 faiz daha az olub. Eyni zamanda, Y.Luti qeyd edib ki, başqa Qərb ölkələrində də islamofobiya meyilləri güclənir. Lakin bu sahədə Parisin siyasəti daha aqressivdir. Məsələn, ABŞ-də müsəlmanlar üçün məşğulluq, təhsil və səhiyyə imkanları Fransada olduğundan daha yaxşıdır.

✍ **Azad Əliyev**

# “Nar” Müştəri Xidmətləri artıq KOBİA-da




**“Nar” Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) yeni müştəri xidməti məntəqəsini istifadəyə verdi. Artıq kiçik və orta bizneslə məşğul olmaq istəyən şəxslər heç yana getmədən, elə agentliyin binasında “Nar” müştəri xidmətləri məntəqəsinə yaxınlaşaraq, “ASAN İmza” xidmətinə qoşula bilir.**

Yeni xidmət məntəqəsi bütün “Nar” müştəriləri üçün xidmətə açıqdır. Eynilə, “Nar” Mərkəzlərində olduğu kimi, KOBİA-da fəaliyyət göstərən xidmət məntəqəsi də hər bir müştəri sorğusunu qeydə alır və abunə əməliyyatlarını yerinə yetirir, həmçinin mövcud xidmətlər haqqında məlumat təqdim edir.

Xidmət məntəqəsi KOBİA-nın binasında - Nərimanov rayonu, Akademik Ziya Bünyadov prospekti 38C, 1969-cu məhəllədə yerləşir. İş saatları, KOBİA-nın iş saatlarına müvafiq olaraq, həftəiçi saat 9:00-dan 18:00-a kimi fəaliyyət göstərir. Nahar fasiləsi saat 13:00-dan 14:00-a kimidir. Həftəsonları isə qeyri-iş günüdür.

“Nar” müştəriyönümlülük siyasətinə uyğun olaraq, abunəçiləri üçün ünsiyyəti rahat və əlçatan etmək üçün ən müasir standartlara cavab verən “Nar” Müştəri Xidmətləri Mərkəzlərinin sayını artırmaqda davam edir. Siz ən yaxın “Nar” Müştəri Xidmətləri Mərkəzini yerini öyrənmək üçün nar.az/-maps <https://www.nar.az/map/> veb səhifəsinə keçə, 777 Çağrı Xidmətinə zəng edə, və ya “Nar”ın sosial media səhifələrinə yaza bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

R

# Qırmızı xalısız OSKAR

***1961-ci ildən bəri ilk dəfə Oskar ənənəvi qırmızı xalçasız keçirilib: bunun əvəzinə mərasim üzrə məsləhətçi Liza Lav və Met Gala İnstitutunun kreativ direktoru Raul Avila Los-Ancelesdəki Dolby kinoteatrının foyesində şampanrəngli xalçanın döşənməsinə qərar veriblər. Ulduz qonaqlar Oskar yaradıcı heyətinin qərarını mərasimə cəmi bir gün qalmış, paltarı dəyişmək üçün çox gec olanda öyrəniblər. Hamı bu xəbərdən məmnun deyildi.***



## Taqdimat

■ **Hollivud aktrisası Ceymi Li Körtis mərasim başlamazdan əvvəl qırmızı xalçanın rəngindən küsməyə başlayıb. 64 yaşlı ulduz tədbirə Dolce & Gabbana-dan parıltılı şampan maksi paltarında gəlib və sözün əsl mənasında yeni xalçanın rəngi ilə birləşib.** "Görünür, Oskardakı xalça paltarımın tonuna uyğun gəlirdi", - deyə aktrisa "Twitter"də yazıb. Bununla belə, aktrisa uzun müddət üzülməyib: bir neçə saatdan sonra Ceymi Li Kertis səhnəyə çıxıb və Daniel Şeynert və Dan Kvanın "Hər şey bir anda hər yerdə" filmində ikinci planda ən yaxşı aktrisa üçün heykəlcik alıb.

■ **Britaniyalı aktrisa Florens Pyu da mərasim üçün Valentino moda kolleksiyasından qolları büzməli, şişkin çılpaq paltar seçərək oxşar vəziyyətlə üzləşib.** Paltarın altında ulduzu xırda qara şort və qalın platformalı ayaq biləyi kəmərli ayaqqabı geyinmişdi ki, bu da onu bir az punk göstərib. Aktrisa geyimini Tiffany & Co-dan qalın platin, art deco brilyant boyunbağı ilə tamamlayıb.

■ **Digər "xalçarəngli" geyimi bu il "Sarışın" bioqrafik filmində Merilin Monro roluna görə "Ən yaxşı aktrisa" adına namizəd olan Ana de Armas nümayiş etdirib.** Aktrisa arzulanan heykəlciyi əldə etmədi, lakin de Armasın mərasimdə göründüyü paltar təkcə moda mütəxəssisləri tərəfindən deyil, həm də Monro pərəstişkarları tərəfindən yüksək qiymətləndirildi.

Fransız moda evinin Louis Vuitton paltarı diqqət mərkəzində parlaq şəkildə parıldayan üçölçülü ləçəklərlə tam işlənmişdi (bu, ulduzu treklə birləşməkdən xilas etdi). Bundan əlavə, de Armasın obrazı qonaqlara bir anda Merilin Monronun iki məşhur geyimini xatırlatdı - Hollivudun Qızıl Dövrünün əsas sarışınının "Şahzadə və Şougirl" filmində rol aldığı paltar və Monronun Con Kennedinin 45-ci ildönümündə çıxış etdiyi paltar. Lakin 30 yaşlı model və aktrisa Cara Delevingne geyimi ilə mütləq doğru təxmin edib: ulduz çiynində kütləvi yay və ombasında yarıq olan möhtəşəm qırmızı Elie Saab Haute Couture paltarında fotoqraflara poza verib. Ulduz geyiminə uyğun hündürdaban sandalet və təxminən bir milyon dollar dəyərində Bvlgari boyunbağı, qolbaq və brilyant sırğa ilə görünüşünü tamamlayıb.



■ **Oskar 2023-də qırmızıgeyimli başqa bir xanım mərasimə uşaqları - qızı Daria və oğlu Zaxarla birlikdə gələn Yuliya Navalnaya olub.** Aleksey Navalnının həyat yoldaşı qırmızı xalçada Fransanın "Chloe" moda evindən dekolteli qırmızı döşəmə paltarında çıxıb, qızı isə gənclərdən spagetti qayışlı xardal paltar seçib. Navalnının oğlu Zaxar klassik qara smokin, ağ köynək və qalstukda səhnəyə çıxıb.



■ **Mişel Uilyamsın geyimi son Oskarların ən çox danışılan geyimlərindən birinə çevrilib. Aktrisa mərasimə "Chanel" moda evinin rhinestones ilə işlənmiş şəffaf papağı ilə qar kimi ağ korset "gəlin paltarı" ilə çıxıb.**

Ulduz görünüşünü Tiffany & Co-dan brilyant chokerlə tamamlayıb. "Köhnə Hollivud" üslubunda makiyaj və saç düzəldib. "Oskar-2023"ün qalibi olan "Hər şey hər yerdə və bir anda" filminin ulduzu mərasimdə Christian Dior-dan qatarla qar-ağ kutyür paltarında görünüb. Paltar tamamilə ağ lələklərlə işlənmişdi, bu da saçaq effekti yaratmışdır. "Ən yaxşı aktrisa" nominasiyasının qalibi obrazı fransız moda evinin zərgərlik xəttindən brilyant zinət əşyaları ilə tamamlayıb: çilçıraqlı sırğalar, kütləvi üzük və saçında qiymətli diadem. Ağ paltarların nümayişini amerikalı komediyaçı və ssenarist, "Ofis" televiziya serialında Kelli Kapur rolu ilə tanınan Mindi Kalinq davam etdirib. Aktrisa Vera Vanqdan belində şəffaf əlavələr və avanqard əlcək qolları olan qar kimi ağ korset paltarında fotoqraflara poza verib.

■ **"Oskar 2023"ün diqqətçəkən məqamlarından biri də müğənni Rihannanın mərasimdə görünməsi olub.** Hamilə pop ulduz xalçaya Alaia moda evindən boyun və qarın nahiyəsində şəffaf əlavələrlə bəzədilmiş uzun qatarlı dar qara dəri paltarda çıxıb. Rihanna səhnəyə çıxmazdan əvvəl şəffaf donunu dizayner Con Qalliano tərəfindən Maison Margiela üçün yaratdığı metal çiçəknaxışlı qara şalvarla dəyişib. Müğənni obrazını ümumi çəkisi 140 karat olan de Beersdən olan brilyant zinət əşyaları ilə tamamlayıb.



■ **"Oskar-2023" mərasiminin ən dəbli ulduzu Harper's Bazaar jurnalistlərinin fikrincə, qırmızı xalçaya yeni Versace kolleksiyasından sinəsində şəffaf əlavəli qara paltar və enli atlas yubka ilə çıxan Ledi Qaqa olub.** Bununla belə, səhnədə çıxış etmək üçün Ledi Qaqa "rahat və səliqəli" şəkildə çıxıb: müğənni cırıq cins şalvar, köynək və idman ayaqqabısı geyinib, makiyajını yuyub və saçlarını sancaqla bağlayıb.

Aktrisa Keyt Blanşett "Tar" filminə görə "Ən yaxşı qadın rolu" nominasiyasında "Oskar"a namizəd olub.

Mərasimin ən zərif ulduzlarından biri aktrisa Keyt Blanşett idi: 53 yaşlı ulduz tədbir üçün asimmetrik zəngin firuzəyi qolları olan axan topdan və qatarlı qara ipək yubkadan ibarət mürəkkəb Louis Vuitton paltarı seçib.

*✍ Azad*

## HƏFTƏ REYTİNQ

### Həftənin OĞLU



Müğənni Manaf Ağayevin oğlu Müşviq Ağayev idarəetməsində olan retroavtomobillə Bayraq Meydanı yaxınlığında yol-patrul xidməti əməkdaşları tərəfindən saxlanılıb. Sənətçi baş verən hadisəyə belə şərh verib: "Oğlumla bağlı yazılanlar doğru xəbərlərdir. O, həqiqətən, sükan arxasında içkili vəziyyətdə olub. Qanunları pozduğuna görə də həbs olunub. Qanun qarşısında hamı bərabərdir. Başqa heç bir şey demək istəmirəm". Qeyd edək ki, Manaf Ağayevin oğlu Müşviq barəsində 5 sutkalıq inzibati həbs qərarı çıxarılıb.

### Həftənin XƏSTƏSİ



Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili ölüm ayağında olduğunu açıqlayıb. O, bu barədə "Sky News" telekanalının suallarını cavablandırarkən bildirib. Saakaşvili telekanalın suallarını vəkil vasitəsilə yazılı olaraq cavablandırıb. 120 kiloqram çəkidən 64 kiloqram çəkiyə düşdüyünü bildirən Saakaşvilinin sözlərinə görə, həkimlər çoxlu orqan çatışmazlığını proqnozlaşdırırlar: "Mən daim yataqdayam, sümüklərim parçalanır və bu, dözülməz ağrılara səbəb olur. Ölüm ayağındayam", - deyə Saakaşvili deyib.

### Həftənin GÖRÜŞÜ



Amerika Kino Sənətləri və Elmləri Akademiyasının ("Oskar") mükafatlandırma mərasimi zamanı ABŞ-li aktyor Harrison Ford 39 il öncə eyni filmdə rol aldığı Ke Hyu Kuan ilə görüşüb. 80 yaşlı Ford və 52 yaşlı Kuan 1984-cü ildə "İndiana Cons" filimində birgə rol alıblar. Harrison Ford həmkarının ilk "Oscar"ını almasını sevinc hissi ilə qarşılayıb. Həmin görüntülər sosial media izləyiciləri tərəfindən müsbət qarşılanıb. Qeyd edək ki, Ke Hyu Kuan "Ən yaxşı ikinci plan kişi rolu"na ("Everything Everywhere All at Once" filminə görə) görə mükafata layiq görülüb.

### Həftənin NAZİRİ



Polşanın Baş prokuroru və ədliyyə naziri Zbiqnev Zebro "Belxatuv" kömür mədənində təşkil olunan mətbuat konfransına belində silahla qatılıb. Polşalı nazir sözügedən mədəndə baş verən qəzanın qurbanlarını yad etmək üçün xatirə lövhəsinin önündə əyilərək gül dəstəsi qoyub. Bu zaman külək Zebronun pencəyini qaldırıb və onun belində silah olduğunu görmək mümkün olub. Kameralara əks olunan görüntülər sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Bunun ardınca açıqlama verən nazir silah gəzdirməyə icazəsinin olduğunu bildirib. Onun sözlərinə görə, illər əvvəl bir cinayət təşkilatının liderinin onu təhdid etməsi səbəbi ilə silah daşımaq icazəsi əldə edib: "Hər vətəndaş kimi özümü və ailəmi qorumaq haqqım var".

### Həftənin XİLASKARI



"2024-cü ildə ABŞ prezidenti postuna yenidən seçilməyim ölkəni Üçüncü Dünya müharibəsindən xilas edəcək". Bunu ABŞ-nin keçmiş Prezidenti Donald Tramp Ayova ştatında tərəfdaşlarının mitinqində çıxışı zamanı deyib. "Mən sizin qarşınızda bunu vəd edə biləcək yeganə namizəd qismində dayanıram - mən Üçüncü Dünya müharibəsinin baş verməsinin qarşısını alacam, çünki bu müharibənin olacağına inanıram. Biz hazırkı administrasiya ilə Üçüncü Dünya müharibəsinə gəlib çıxacağıq, çünki onlar düzgün danışmağı, doğru siqnallar göndərməyi bilmirlər", - deyə Tramp qeyd edib.

### Həftənin REKORDU



"Mançester Siti"nin ulduzu Erlinq Haaland UEFA Çempionlar Liqasında "Leyptsiq"ə 2 dəqiqə ərzində 2 qol vurub. Norveçli ulduz 25 matçda 30 qol vuraraq Çempionlar Liqasında bu rəqəmə çatan ən gənc oyunçu olub. Haaland ilk hissədə het-trik edərək Mbappe və Messinin rekordunu qırıb. İkinci hissədə daha 2 qol vuran və matçda 5 qola çatan Haaland bir matçda ən çox qol vuran Messinin rekordunu təkrarlayıb.

*✍ Azad Əliyev*

# "Nar" "Fərqli Fərdlər" Konqresində sosial layihələrlə bağlı təcrübəsini bölüşüb Ⓡ

**11 mart 2023-cü il tarixində Heydər Əliyev Mərkəzində "Fərqli Fərdlər - Xüsusi Qayğıya Ehtiyacı Olan İnsanlar üçün 5-ci Yubiley Konqres" keçirilib. Konqresin əsas məqsədi ictimaiyyətin diqqətini fiziki məhdudiyyətli şəxslərə yönəldərək inklüziv cəmiyyətə dəstək verməkdir.**

Konqresdə müxtəlif sahələrdən olan tanınmış yerli və beynəlxalq spikerlər çıxış ediblər. "Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov da mobil operatorun tətbiq etdiyi uğurlu sosial layihələrlə bağlı təcrübələrini bölüşüb:




"Nar olaraq cəmiyyətin həssas qisminə yönəlik layihələr etməkdə davam edirik, "Təlim məktəbi <https://www.nar.az/news-details/nar-2023-cu-ilde-pese-telimlerine-davam-edir/>" və "Jest dili <https://www.nar.az/news-details/narin-sosial-layihesi-netty-mukafatina-layiqgoruldu/>" kimi layihələrimizlə eşitmə məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyasına və maliyyə azadlığına dəstək olmağa çalışırıq". Mobil operator indiyədək fiziki məhdudiyyətli insanlara yönəlik davamlı sosial layihələrlə çox sayda insanın həyatında müsbət dəyişikliklər edib.Nar"ın korporativ sosial məsuliyyət strategiyası çərçivəsində eşitmə və nitq məhdudiyyətli insanlar üçün həyata keçirdiyi layihələrlə buradan <https://www.nar.az/projects/> tanış ola bilərsiniz. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## GÜNÜN FOTOSU



**Ukraynalı hərbçi Volodimir sevgilisi Viktoriyaya Kramatorsk vağzalında evlilik təklifi edir**

"

# Abituriyentlər imtahan suallarından narazıdır

**Elçin Əfəndi,**
təhsil eksperti

Dövlət İmtahan Mərkəzi bunu nəzərə alıb, blok imtahanında sualları abituriyentlərin bilik səviyyəsinə uyğun tərtib etməlidir.

▸▸ Səh. 7

## STATİSTİKA




■ **Bu il martın 1-nə Azərbaycanda bağlanmış əmək müqavilələrinin sayı 1 milyon 754 mindən çox olub. Bu, 2019-cu ilin əvvəli ilə müqayisədə 352,1 min ədəd və yaxud 25,1 % çoxdur.**

Qeyri-neft sektorunun özəl bölməsində həmin göstərici 296,8 min və yaxud 55 % artaraq 836,7 min təşkil edib. Bu ilin fevral ayında qeyri-neft özəl sektorunda aktiv əmək müqavilələrinin sayında 10,4 min artım müşahidə olunub.



▸▸ Səh. 5

# Susuz qalacağıq?!